AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

6 MART 2019-cu il ÇƏRŞƏNBƏ № 53 (6380) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

## Azərbaycan Prezidenti İlham Əliyev ATƏT-in fəaliyyətdə olan sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 5-də ATƏT-in fəaliyyətdə olan sədri, Slovakiyanın xarici işlər və Avropa naziri Miroslav Layçakın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Miroslav Layçak ilə Davosdakı qısa görüşünü məmnunluqla xatırlayaraq, onun ölkəmizə bu səfərinin regionda vəziyyət, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli və digər məsələlərin müzakirəsi üçün yaxşı imkan yaratdığını bildirdi.

Miroslav Layçak Slovakiyanın ATƏT-ə sədrliyi dövründə müəyyən edilmiş prioritetlər barədə dövlətimizin başçısına məlumat verərək, bu sırada münaqişələrin qarşısının alınmasının və vasitəçiliyin mühüm yer tutduğunu diqqətə çatdırdı, bu dövrdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqlar prosesinə töhfə vermək əzmində olduqlarını dedi. Miroslav Layçak münaqişə ilə bağlı vəziyyətlə yerindəcə tanış olmaq və fikir mübadiləsi aparmaq üçün bu səfərin yaxşı fürsət yaratdığını bildirdi.

Ölkəmizin ATƏT-ə üzvlüyə böyük önəm verdiyini deyən dövlətimizin başçısı Azərbaycanın həm bu təşkilat çərçivəsində, həm də təşkilata üzv olan dövlətlərlə fəal iş apardığını və səmərəli tərəfdaşlıq əlaqələri qurduğunu dedi. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsinə toxunan Prezident İlham Əliyev bu münaqişənin uzun illərdir ki, davam etdiyini və Azərbaycan ərazilərinin bütün beynəlxalq hüququn norma və prinsiplərinin kobud şəkildə pozularaq Ermənistan tərəfindən işğal altında saxlanıldığını diqqətə çatdırdı. Dövlətimizin başçısı qeyd etdi ki, BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş bütün ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələrinə, ATƏT və digər təşkilatların bu cür qərar və qətnamələrinə baxmayaraq, 25 ildən artıqdır ki, bu tələblər yerinə yetirilmir. İşğal nəticəsində bir milyona yaxın soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətinə düşdüyünü, torpaqlarımızın zəbt edildiyini, işğal olunmuş ərazilərdə qeyri-qanuni məskunlaşdırma və demoqrafik vəziyyətin dəyişdirilməsi siyasətinin həyata keçirildiyini deyən dövlətimizin başçısı Azərbaycanın bu münaqişənin tezliklə sülh yolu ilə həllində ən maraqlı tərəf olduğunu bildirdi. Danışıqlar prosesində müəyyən dinamikanın müşahidə olunduğunu, xarici işlər nazirləri səviyyəsində dörd dəfə görüşün keçirildiyini və Azərbaycan Prezidenti ilə Ermənistanın baş naziri arasında üç dəfə söhbətin aparıldığını qeyd edən dövlətimizin başçısı Ermənistan tərəfindən substantiv danışıqların aparılması üçün hər hansı ciddi niyyətin olmadığını və Ermənistanın danışıqlar prosesini pozmağa çalışdığını bildirdi. Prezident İlham Əliyev münaqişənin həllində irəliləyişlərin əldə olunması və Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmasının təmin edilməsi üçün beynəlxalq birlik tərəfindən Ermənistana ciddi təzyiqlərin göstərilməsinin vacibliyini qeyd etdi.

Görüşdə, həmçinin ATƏT-in gündəliyində duran məsələlərə, Azərbaycan və Slovakiya arasında ikitərəfli əlaqələrin inkişaf perspektivlərinə dair fikri mübadiləsi aparıldı.

AZƏRTAC

## Prezident İlham Əliyev Avropa Yenidənqurma və İnkişaf Bankının prezidentinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 5-də Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Suma Çakrabartinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Azərbaycan ilə Avropa Yenidənqurma və İnkişaf Bankı arasında uzun illər çox uğurlu əməkdaşlığın davam etdiyini bildirərək, ümumi dəyəri 3,5 milyard dollardan artıq olan layihələrin həyata keçirilməsini Avropa Yenidənqurma və İnkişaf Bankının Azərbaycana yaxşı tərəfdaş kimi münasibətinin nümayişi kimi dəyərləndirdi və bütün bunlara görə Suma Çakrabartiyə təşəkkürünü ifadə etdi.

Xoş sözlərə görə minnətdarlığını bildirən Suma Çakrabarti dünyada neftin qiymətinin aşağı düşdüyü dövrdə Azərbaycana səfər etdiyini xatırlayaraq, ölkə iqtisadiyyatının bərpa olunaraq inkişafa qədəm qoyması münasibətilə təbriklərini çatdırdı. O, son illər ərzində Azərbaycanda həyata keçirilən islahatlar nəticəsində bir sıra sahələrdə, o cümlədən sərhəd və gömrük xidmətlərində şəffaflığın və səmərəliliyin artırıldığını, vergi sistemində dəyişikliklərin edildiyini, “ASAN xidmət” sisteminin əhatə dairəsinin genişləndirildiyini və digər istiqamətlərdə böyük uğurlar qazanıldığını qeyd etdi. Suma Çakrabarti Dünya Bankının “Doing Business 2019” hesabatında Azərbaycanın 25-ci yerə yüksəlməsinin önəmini vurğulayaraq bunu əldə edilən böyük uğur kimi dəyərləndirdi.

Prezident İlham Əliyev Avropa Yenidənqurma və İnkişaf Bankı tərəfindən Azərbaycanda həyata keçirilən layihələrin maliyyələşdirilməsinin ölkəmizdə müasir infrastrukturun yaradılması işinə böyük kömək göstərdiyini qeyd etdi və bildirdi ki, özəl sektorun bu maliyyə vəsaitindən yararlanması və müsbət istiqamətdə inkişafı Avropa Yenidənqurma və İnkişaf Bankının Azərbaycanda həyata keçirdiyi strategiyanın uğurlu olduğunu göstərir. Azərbaycanda genişmiqyaslı islahatların həyata keçirildiyini qeyd edən Prezident İlham Əliyev bu islahatların və eləcə də idarəçilikdə yeni yanaşma nəticəsində biznesin daha da inkişafı üçün əlverişli şərait yarandığını və büdcə gəlirlərinin artdığını dedi, ötən il, eləcə də bu ilin yanvar-fevral aylarında gəlirlərin plandan artıq daxil olduğunu bildirdi. Dövlətimizin başçısı hazırda Azərbaycanda gömrük və vergi sistemlərinin birgə sıx fəaliyyət göstərdiklərini və bunun nəticəsində bu orqanlarda maksimum şəffaflığın təmin edilməsi istiqamətində səmərəli nəticələrin əldə edildiyini bildirdi və qeyd etdi ki, bütün bu islahatlar və şəffaflığın təmin edilməsi əhali tərəfindən yüksək qiymətləndirilir. Azərbaycanın düşünülmüş və düzgün inkişaf yolu ilə irəlilədiyini vurğulayan dövlətimizin başçısı ölkəmizin bu sahələrdə islahatların birinci hissəsinin başlanğıcında olduğunu, bu il və qarşıdakı illərdə də bütün bunların uğurlu nəticələr verəcəyinə əminliyini ifadə etdi.

Görüşdə Avropa Yenidənqurma və İnkişaf Bankının Azərbaycanla yeni sahələrdə əməkdaşlıqda maraqlı olduğu qeyd edildi və qeyri-neft sektorunun inkişafı, şəhərdaxili nəqliyyat, bərpaolunan enerji və digər sahələrdə əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.

AZƏRTAC

## Prezident İlham Əliyev ATƏT PA yanında İtaliya nümayəndə heyətinin sədrini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 5-də ATƏT PA yanında İtaliya nümayəndə heyətinin sədri, İtaliya Deputatlar Palatasında Xarici Əlaqələr Komissiyasının sədr müavini Paolo Qrimoldini qəbul edib.**



AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Azərbaycan ilə İtaliya arasında siyasi, iqtisadi və digər sahələrdə çoxşaxəli əlaqələrin mövcud olduğunu qeyd edərək, yüksək səviyyədə həyata keçirilən səfərlərin önəmini vurğuladı. İtaliya Prezidentinin keçən il Azərbaycana, özünün isə İtaliyaya bir neçə dəfə səfər etdiyini xatırladan dövlətimizin başçısı İtaliya Prezidentinin Azərbaycana rəsmi səfəri zamanı Azərbaycan və İtaliya prezidentlərinin İtaliya şirkətləri tərəfindən inşa edilmiş böyük sənaye müəssisəsinin açılışının qeyd edildiyini bildirdi və ölkələrimiz arasında sənaye, energetika, mədəniyyət və digər sahələrdə yaxşı əməkdaşlıq formatının olduğunu dedi.

Səfər zamanı Bakı haqqında təəssüratları barədə xoş sözlərini çatdıran Paolo Qrimoldi ölkələrimizi bir-birinə bağlayan sıx əlaqələrin mövcud olduğunu dedi. Enerji sahəsində Azərbaycan ilə İtaliya arasında bir sıra razılaşmaların olduğunu vurğulayan qonaq Azərbaycan qazını İtaliyaya çatdıracaq TAP boru kəməri üzrə işlərin uğurla davam etdirildiyini məmnunluqla vurğuladı. Paolo Qrimoldi iqtisadi sahədə əməkdaşlığımızın inkişafı ilə yanaşı, ikitərəfli münasibətlərimizin siyasi əlaqələrlə də şərtləndiyini dedi və ATƏT Parlament Assambleyasında Azərbaycan nümayəndə heyəti ilə səmərəli əməkdaşlıq həyata keçirdiklərini qeyd etdi.

Görüşdə, həmçinin ölkələrimiz arasında mədəniyyət, turizm, idman və digər sahələrdə ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsinə dair məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

AZƏRTAC

## Ə.M.Vəliyevin 3-cü dərəcəli “Əmək” ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında mədəniyyət sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Ədalət Məqsəd oğlu Vəliyev 3-cü dərəcəli “Əmək” ordeni ilə təltif edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 5 mart 2019-cu il.**

## Azərbaycan Dövlət Musiqili Teatrına və Azərbaycan Dövlət Rus Dram Teatrına “akademik” statusu verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan teatrlarının fəaliyyətinə dövlət qayğısını daha da artırmaq məqsədi ilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Dövlət Musiqili Teatrına və Azərbaycan Dövlət Rus Dram Teatrına “akademik” statusu verilməsini on beş gün müddətində təmin etsin;

*1.2.* Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Sərəncama uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.3.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.4.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.5.* bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Sərəncama uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 5 mart 2019-cu il.**

## 2019 Formula 1 Azərbaycan Qran-Pri yarışının təşkili və keçirilməsi ilə bağlı Azərbaycan Respublikasına gələcək əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Müəyyən edilsin ki, Azərbaycan Respublikasında keçiriləcək 2019 Formula 1 Azərbaycan Qran-Pri yarışı ilə əlaqədar Azərbaycan Respublikasına gələn və bu Sərəncamın 2-ci hissəsində göstərilən sənədlərdən hər hansı birini təqdim edən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər 2019-cu il martın 15-dən mayın 15-dək Azərbaycan Respublikasının beynəlxalq hava limanlarında viza ala bilərlər.

**2.** Aşağıdakı sənədlərdən biri viza verilməsi üçün əsas hesab edilsin:

*2.1.* Formula 1 yarışlarının beynəlxalq təşkilatçıları olan "Formula One Management Limited" şirkətinin və Beynəlxalq Avtomobil Federasiyasının müvafiq qaydalarına uyğun olaraq akkreditasiyadan keçməni təsdiq edən akkreditasiya kartı;

*2.2.* Bakı Şəhər Halqası Əməliyyat Şirkətində akkreditasiyadan keçməni təsdiq edən akkreditasiya kartı;

*2.3.* 2019 Formula 1 Azərbaycan Qran-Pri yarışına bilet və ya biletin əldə olunmasını təsdiq edən sənəd.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi:

*3.1.* 2019 Formula 1 Azərbaycan Qran-Pri yarışı ilə əlaqədar Azərbaycan Respublikasına gələn şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi, habelə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 1 iyun tarixli 923 nömrəli Fərmanının 4.2-ci bəndinə əsasən təsdiq edilmiş ölkələrin siyahısı üzrə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin "ASAN Viza" sistemi vasitəsilə elektron viza almaq imkanı barədə "Formula One Management Limited" şirkətinə, Beynəlxalq Avtomobil Federasiyasına və xarici ölkələrin müvafiq orqanlarına məlumat versin;

*3.2.* 2019 Formula 1 Azərbaycan Qran-Pri yarışı ilə əlaqədar Azərbaycan Respublikasına gələn şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi, habelə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin "ASAN Viza" sistemi vasitəsilə elektron viza almaq imkanı barədə məlumatın nazirliyin, eləcə də Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirliklərinin və konsulluqlarının internet informasiya ehtiyatlarında yerləşdirilməsini təmin etsin.

**4.** Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti Azərbaycan Respublikasına uçuşlar həyata keçirən aviasiya şirkətlərinə 2019 Formula 1 Azərbaycan Qran-Pri yarışı ilə əlaqədar Azərbaycan Respublikasına gələn şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi barədə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 5 mart 2019-cu il.**

*Kristina Marti Lanq:*

# Fəxr edirik ki, Azərbaycan bizim əsas tərəfdaşlarımızdan biridir

**Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov martın 5-də İsveçrə Konfederasiyasının Federal Xarici İşlər Departamentinin dövlət katibinin müavini Kristina Marti Lanqın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan-İsveçrə münasibətlərinin müxtəlif istiqamətlərdə uğurla inkişaf etdiyini bildirən Baş nazir ölkələrimiz arasında siyasi, iqtisadi, qarşılıqlı sərmayə qoyuluşu və digər sahələrdə yaxşı əməkdaşlıq əlaqələrinin qurulduğunu diqqətə çatdırıb. Novruz Məmmədov əlaqələrin daha da genişləndirilməsi üçün böyük potensialın olduğunu qeyd edərək, yüksək səviyyəli qarşılıqlı səfərlərin əməkdaşlığın inkişafı baxımından mühüm əhəmiyyət daşıdığını vurğulayıb.

Azərbaycan və İsveçrə prezidentlərinin görüşlərini xatırladan Novruz Məmmədov qeyd edib ki, Prezident İlham Əliyev ölkələrimiz arasında əlaqələrin inkişafına çox böyük önəm verir. Baş nazir Novruz Məmmədov Kristina Marti Lanqın ölkəmizə səfərinin əlaqələrimizin daha da genişləndirilməsinə mühüm töhfələr verəcəyinə əminliyini ifadə edib.

Azərbaycan-İsveçrə diplomatik münasibətlərinin 25 ildən çox yaşı olduğunu söyləyən Kristina Marti Lanq ölkələrimizin 20 ildir ki, beynəlxalq səviyyədə uğurla əməkdaşlıq etdiklərini vurğulayıb. "Hesab edirəm ki, ötən müddət ərzində biz müxtəlif sahələrdə kifayət qədər səmərəli əməkdaşlıq əlaqələri qurmuşuq. Fəxr edirik ki, Azərbaycan bizim əsas tərəfdaşlarımızdan biridir", - deyə Kristina Marti Lanq vurğulayıb.

Söhbət zamanı İsveçrənin AXPO şirkətinin Trans-Adriatik boru kəməri layihəsində iştirakı, həmçinin hökumətlərarası birgə komissiyanın fəaliyyəti yüksək qiymətləndirilib, siyasi, iqtisadi, parlamentlərarası əlaqələrin genişləndirilməsinə və qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparılıb.

**AZƏRTAC**

## Azərbaycan və Gürcüstan prezidentlərinin görüşündə perspektivli layihələr barədə fikir mübadiləsi aparıldı

**Gürcüstan və Azərbaycan prezidentlərinin Bakıda keçirilmiş görüşündə hər iki ölkə üçün mühüm əhəmiyyət kəsb edən, eyni zamanda, regionun enerji sabitliyinə mühüm töhfə verən genişmiqyaslı layihələr müzakirə edildi. Dövlət başçıları Gürcüstanın, Azərbaycanın və Türkiyənin birgə həyata keçirdiyi enerji və nəqliyyat layihələrinin əhəmiyyətini xüsusi vurğuladılar. Prezidentlərin görüşündə perspektivli layihələr barədə də müzakirələr aparıldı.**

AZƏRTAC xəbər verir ki, bu barədə Gürcüstan Prezidenti Salome Zurabişvilinin mətbuat katibi Xatia Moistsrapişvili martın 5-də keçirdiyi brifinqdə məlumat verib.

X.Moistsrapişvili deyib: "Dövlət başçıları bildiriblər ki, nəqliyyat sahəsində birgə layihələrin həyata keçirilməsində potensial mövcuddur və ondan istifadə etmək lazımdır. Bu gün bölgədə sabitlikdir və ciddi investisiyalar həyata keçirmək mümkündür".

Gürcüstan-Azərbaycan sərhədlərinin delimitasiya və demarkasiyası məsələsinə toxunan X.Moistsrapişvili deyib ki, dövlət başçıları hər iki tərəfdən olan komissiyaların tərkibinin yenilənməsinin və fəaliyyətinin aktivləşdirilməsinin zəruriliyini vurğulayıblar: "Bu, ümumi sərhədin tam olaraq müəyyən olunması üçün lazımdır. Gürcüstan Prezidenti hesab edir ki, bu, iki ölkə arasında mövcud dostluq münasibətlərinə görə mümkündür".

**AZƏRTAC**

*Miroslav Layçak:*

# Azərbaycan ATƏT üçün önəmli ölkədir

**Martın 5-də Milli Məclisin sədri Oqtay Əsədov ATƏT-in fəaliyyətdə olan sədri, Slovakiyanın xarici işlər və Avropa naziri Miroslav Layçakın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, görüşdə sədr Oqtay Əsədov Miroslav Layçakla görüşlərini xatırladaraq, qonağın ATƏT-in fəaliyyətdə olan sədri kimi ölkəmizə səfərini yüksək qiymətləndirib. Bildirilib ki, Azərbaycan uzun illər bu nüfuzlu beynəlxalq qurumun üzvü kimi təşkilata üzv ölkələrlə əməkdaşlığın inkişafına böyük önəm verir. "Biz ATƏT-in müxtəlif institutları ilə sıx əməkdaşlıq edirik. Nümayəndə heyətimiz təşkilatın müxtəlif tədbirlərinə qatılır. Qarşılıqlı səfərlər əməkdaşlığımızın daha da dərinləşməsinə töhfə verir. Qurumun Parlament Assambleyasında müzakirə olunan məsələlərə deputatlarımız Azərbaycan tərəfinin mövqeyini bildirirlər. Hesab edirik ki, ATƏT-in səlahiyyətləri genişləndirilməli, onun maraq dairəsində olan məsələlərin həlli üçün lazımi şərait yaradılmalıdır. Bu, ATƏT məkanında mövcud münaqişələrin aradan qaldırılmasında əhəmiyyətli rol oynaya bilər", - deyə Milli Məclisin sədri diqqətə çatdırıb.

Bildirilib ki, bu gün dinamik inkişaf edən Azərbaycanın ən ağrılı problemi olan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn normaları çərçivəsində, sərhədlərin toxunulmazlığı prinsipi əsasında həlli bölgənin tərəqqisinə böyük töhfə verər. Problemin həlli ilə məşğul olan ATƏT-in Minsk qrupu hələlik bu sahədə ciddi nəticələrə nail ola bilməyib. Biz inanırıq ki, problem tezliklə öz ədalətli həllini tapacaq.

Söhbətdə Oqtay Əsədov Azərbaycanın Slovakiya ilə əlaqələrindən söz açaraq, münasibətlərimizin yüksələn xətlə inkişaf etdiyini deyib. Bildirilib ki, siyasi sahədə dialoq iqtisadi münasibətlərə də müsbət təsir göstərir. Parlamentlər səviyyəsində əməkdaşlığın genişləndirilməsi ümumi məqsədlərə xidmət edir. Bu sahədə dostluq qruplarının əhəmiyyəti böyükdür. Deputatlarımız müxtəlif beynəlxalq təşkilatlarda mütəmadi olaraq görüşür, onları maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparırlar.

ATƏT-in fəaliyyətdə olan sədri, Slovakiyanın xarici işlər və Avropa naziri Miroslav Layçak ölkəmizə səfərindən və burada aparılan danışıqlardan məmnun qaldığını söyləyib. O, səfərdə əsas məqsədin bölgədəki vəziyyətlə yaxından tanış olmaq, lazımi məlumatları ilk mənbədən əldə etmək olduğunu deyib. Bildirib ki, ATƏT-in fəaliyyətdə olan sədri kimi o, insan amilinə və sabitliyin qorunmasına böyük önəm verir. O, təşkilatın fəaliyyət istiqamətlərinin ATƏT məkanında münaqişələrin aradan qaldırılması, təhlükəsizliyin möhkəmləndirilməsi, nüfuzlu qurumlarla qarşılıqlı əməkdaşlığın genişləndirilməsi olduğunu diqqətə çatdırıb.

M.Layçak vurğulayıb ki, Azərbaycan ATƏT üçün önəmli ölkədir və təmsil etdiyi təşkilat Qafqazın bu bölgəsi ilə gələcəkdə də əlaqələri genişləndirmək niyyətindədir.

Miroslav Layçak Dağlıq Qarabağ probleminin tezliklə həll edilməsi üçün təşkilatın mövcud imkanlarından maksimum istifadə edəcəklərini dilə gətirib. O, Slovakiya ilə Azərbaycan arasında müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsinin xalqların ümumi mənafelərinə xidmət etdiyini söyləyib.

Söhbət zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında söhbət açılıb.

Görüşdə Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev, Slovakiya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun başçısı Şəmsəddin Hacıyev, ölkəmizin ATƏT yanında daimi nümayəndəsi Qalib İsrafilov, Slovakiyanın Azərbaycandakı səfiri Peter Priputen, ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşik, təşkilatın fəaliyyətdə olan sədrinin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Rudolf Miçalka və digər rəsmilər iştirak ediblər.

**AZƏRTAC**

## İşğal altındakı ərazilərdə qeyri-qanuni fəaliyyətlərin qarşısının alınması ilə bağlı beynəlxalq konfrans keçirilib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qarşıya qoyduğu tapşırığa uyğun olaraq "Hərbi işğal altında olan ərazilərdə iqtisadi və digər fəaliyyətlərin qeyri-qanuniliyi: üçüncü tərəflərin öhdəlikləri və münaqişənin həllinə təsirləri" mövzusunda Bakıda beynəlxalq konfrans keçirilib.**





AZƏRTAC xəbər verir ki, tədbirin əsas məqsədi Ermənistan Respublikasının hərbi işğalı nəticəsində nəzarət olunmayan Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınan ərazilərində təcavüzkar dövlətin və digər ölkələrin hüquqi və fiziki şəxslərinin qanunsuz hərəkətlərini dünyanın nüfuzlu beynəlxalq hüquqşünasları və ekspertlərinin, o cümlədən ölkəmizin aidiyyəti qurumlarının mütəxəssislərinin də iştirakı ilə müzakirə etmək, bu fəaliyyətin hüquqi aspektləri və nəticələrini müəyyən etmək olub.

Konfransda əvvəlcə xarici işlər naziri Elmar Məmmədyarovun, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayevin, iqtisadiyyat nazirinin müavini Rüfət Məmmədovun və UNESCO-nun Ümumdünya İrs Mərkəzinin direktoru xanım Meçtild Rösslerin çıxışları dinlənilib.

Sonra isə konfrans "Hərbi işğal altında olan ərazilərdə qeyri-qanuni fəaliyyətlə bağlı beynəlxalq hüquqi çərçivə", "Beynəlxalq hüquqda üçüncü tərəflərin öhdəlikləri və məsuliyyəti", "İşğal olunmuş ərazilərdə aparılan qanunsuz iqtisadi fəaliyyətə beynəlxalq cavab" adlı panel iclaslarla davam etdirilib.

Tədbirdə Azərbaycanda və dünyanın digər münaqişəli bölgələrində qeyri-qanuni iqtisadi fəaliyyətlə məşğul olan dövlətlərin, hüquqi və fiziki şəxslərin öhdəlikləri və məsuliyyəti, beynəlxalq ictimaiyyətin cavabdehliyi və bu cür qanunsuz hərəkətlərə reaksiyası, beynəlxalq hüququn tətbiqi kimi məsələlərin əhəmiyyəti barədə geniş fikir mübadiləsi aparılıb və bu istiqamətdə fəaliyyətin gücləndirilməsi üçün tövsiyələr təqdim edilib.

Konfrans beynəlxalq hüquqşünaslar və ekspertlərin imkanlarını nəzərə alaraq Azərbaycanın işğal olunmuş torpaqlarında qeyri-qanuni fəaliyyətləri həyata keçirən Ermənistan və digər üçüncü tərəflərin qanunsuz əməllərinin hüquqi müstəvidə qarşısını almaq üçün geniş imkanlar yaradıb. Bu mövzuda beynəlxalq səviyyədə digər tədbirlərin də keçirilməsi nəzərdə tutulub.

Tədbirdə bir sıra dövlət qurumları, xarici ölkələrin və beynəlxalq təşkilatların ölkəmizdəki diplomatik missiyaları, xarici və yerli elmi-akademik dairələrinin nümayəndələri də iştirak ediblər.

**AZƏRTAC**

## Bakı Kitab Mərkəzində "Dağ yəhudilərinin tarixi və mədəniyyəti" adlı kitabın təqdimatı keçirilib





**Martın 5-də Dünya Dağ Yəhudiləri Konqresi Bakı Kitab Mərkəzində "Dağ yəhudilərinin tarixi və mədəniyyəti" adlı kitabın təqdimatını keçirib.**

AZƏRTAC xəbər verir ki, təqdimatın açılışında çıxış edən Konqresin prezidenti Akif Gilalov kitabın dünyanın müxtəlif ölkələrindən olan tanınmış alimlər qrupunun fundamental əsəri olduğunu bildirib.

Tədbirdə Azərbaycanın və Qafqazın dağ yəhudilərinin tarixi barədə "Azərbaycanın dağ yəhudiləri: Qafqaz Qüdsü və ya kiçik xalqın böyük taleyi" adlı film nümayiş etdirilib.

Azərbaycandakı Avropa yəhudilərinin ravvini Şneyor Seqal qeyd edib ki, Azərbaycanda dağ yəhudilərinin taleyi çox mətləblərdən, ən əsası Azərbaycan xalqının tolerantlığından xəbər verir.

Ölkəmizdə səfərdə olan ATƏT Parlament Assambleyası yanında İtaliya nümayəndə heyətinin sədri, İtaliya Deputatlar Palatasında Xarici əlaqələr komissiyasının sədr müavini Paolo Qrimoldi bildirib ki, tolerantlığın və dini dözümlülüyün təcəssümü olan Azərbaycan dostluq və tərəqqi nümunəsidir. Burada müxtəlif xalqların, dini konfessiyaların nümayəndələri sülh və həmrəylik şəraitində yaşayırlar.

Milli Məclisin deputatı, publisist Elmira Axundova, tarixçi Fuad Axundov öz çıxışlarında dövlətimizin daim bərabərhüquqlu vətəndaşları olan, ölkəmizin quruculuq həyatında fəal iştirak edən, azərbaycanlılarla bərabər ölkəni müdafiə edən dağ yəhudilərinin Azərbaycanda yaşaması tarixindən söhbət açıblar.

Tədbirdə nadir fotoşəkillərdən və arxiv sənədlərindən, dağ yəhudilərinin ənənəvi sənətkarlıq nümunələrindən ibarət sərgi təşkil edilib, həmçinin musiqi kollektivlərinin çıxışı təqdim olunub.

**AZƏRTAC**

# Azərbaycan Respublikası Dövlət Neft Fondu tərəfindən açıqlama

**Bir sıra kütləvi informasiya vasitələrində investisiya idarəetmə sahəsində heç bir təcrübəyə malik olmayan, qlobal maliyyə bazarlarındakı son trendləri izləməyən və səhm bazarlarındakı mövcud vəziyyəti araşdırmayan, suveren fondların investisiya fəaliyyətinin necə reallaşdırıldığı, onların investisiya fəaliyyətlərinin nəticələri və ümumiyyətlə portfel idarə edilməsi sahəsində məlumatsız bəzi şəxslər tərəfindən Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARNDF) 2018-ci ilin yekunları üzrə göstəricilərinin açıqlanmasının gecikdirilməsi və buna səbəb olaraq Fondun vəsaitlərinin düzgün idarə edilməməsi nəticəsində investisiya portfelinin gəlirliliyinin az olması barədə səsləndirilən əsassız fikirlər yer almaqdadır.**

Bu barədə AZƏRTAC-a Azərbaycan Respublikası Dövlət Neft Fondundan açıqlama verilib.

ARDNF bildirib ki, hər ilin sonunda qurumun aktivlərinin yenidən qiymətləndirilməsi və auditi aparılır və bütün bu məlumatlar yalnız qeyd olunan proseslər yekunlaşdıqdan sonra açıqlana bilər. Eyni zamanda, ARDNF-in fəaliyyəti barədə Fondun icraçı direktorunun müsahibə və çıxışları (AZƏRTAC, İTV) zamanı gəlirliliyin az olmasına birbaşa təsir edən amillər və bunun hansı səbəblərdən qaynaqlandığı barədə məlumatlar ictimaiyyətə açıqlanıb.

ARDNF gəlirliliyinə dair açıqlamasını bir daha təqdim edir:

2018-ci il beynəlxalq səhm bazarları üçün çox çətin il olub. Ötən ilin ilk doqquz ayı ərzində qlobal səhm bazarlarında müsbət nəticələr əldə olunmasına baxmayaraq, sonuncu rübdə dünyanın əksər əsas iqtisadiyyatlarında qlobal iqtisadi artımın zəifləməsi barədə bədbin proqnozlar fonunda səhm bazarlarında mənfi gəlirlilik qeydə alınmışdır. Brexit ətrafında yaranmış gərginlik, Çinin iqtisadi artım dinamikasının zəifləməsi, ABŞ-ın Federal Ehtiyat Sisteminin apardığı faiz dərəcəsi siyasəti barədə təşvişlərin artması, eləcə də Birləşmiş Ştatlarda yüksələn faiz dərəcələri fonunda şirkət gəlirləri ilə bağlı bədbin gözləntilər kimi amillər də birbaşa səhm bazarlarında aşağı gəlirliliyə öz mənfi təsirini göstərib.

2018-ci ildə səhm bazarlarında yaşanan yüksək qiymət dəyişkənliyi mühiti və bu əsnada yaranan enmə trendi bir çox uzunmüddətli institusional investorlar (o cümlədən aparıcı suveren ehtiyat fondlarının əksəriyyəti) üçün də təsirsiz ötüşməyib. Belə ki, investisiya portfelinin əhəmiyyətli hissəsinin səhm aktivlərinin təşkil etdiyi bu investorlar gəlirliliklərində aşağı və ya mənfi nəticələr əldə ediblər. Məsələn, 2018-ci ildə Norveçin suveren fondu Dövlət Pensiya Fondunun gəlirliliyi -6,1 faiz, Alyaska və Yeni Zelandiyanın suveren fondlarının gəlirliliyi isə müvafiq olaraq -1,1 faiz və -2,18 faiz olub. Qlobal səhm bazarlarında mövcud olan bu vəziyyət, əlbəttə ki, digər investorlar kimi ARDNF-in də 2018-ci il üzrə investisiya portfelinin lokal valyutada gəlirliliyinə təsir göstərib. Qeyd edilən dövr üzrə Neft Fondunun investisiya portfelinin lokal valyutada gəlirliliyi 0,35 faiz təşkil edib.

Qeyd olunub ki, ARDNF-in əsas missiyası neft gəlirlərinin gələcək nəsillər üçün qorunub saxlanılması, habelə toplanan vəsaitlərin daimi gəlir mənbəyinə çevrilməsidir. Neft Fondunun investisiya portfelində səhm, daşınmaz əmlak, qızıl kimi aktivlərin də yer almasında əsas məqsəd uzunmüddətli dövrü əhatə edən qlobal investisiya portfelinin qurulmasıdır. Səhmlər də investisiya aktivi olaraq bu portfel üçün xüsusi əhəmiyyət kəsb edir. Şirkətlərdə sahiblik statusu verən, onların mənfəət artımını, eləcə də iqtisadi artım kimi önəmli komponentləri öz dəyərində əks etdirən səhm yatırımları uzunmüddətli dövr ərzində daha yüksək gəlirlilik vəd etməklə, investisiya portfelinin şaxələndirilməsində müstəsna rol oynayır.

Səhmlərin portfeldə optimal həcmdə yer alması ARDNF-in vəsaitlərinin real dəyərinin qorunmasında, o cümlədən onların alıcılıq qabiliyyətinin saxlanılmasında böyük əhəmiyyət kəsb edir. Lakin bununla yanaşı, səhm investisiyaları qısamüddətli dövr ərzində yüksək qiymət dəyişkənliyi ilə xarakterizə olunur ki, bu da öz növbəsində, müəyyən zaman kəsiklərində investisiya portfelinə əlavə volatillik gətirir.

**AZƏRTAC**

# Meliorasiya və su təsərrüfatının regionların sosial-iqtisadi inkişafında mühüm rolu

**Xalqımızın ümummilli lideri, müasir Azərbaycan dövlətinin banisi və qurucusu Heydər Əliyevin müəyyən etdiyi siyasi kursa uyğun Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən məqsədyönlü dövlət siyasətinin həyata keçirilməsi, sistemli islahatların aparılması, ictimai-siyasi, sosial-iqtisadi həyatda mütərəqqi dəyişikliklərin edilməsi, onun qətiyyətli addımları, səriştəli idarəçiliyi nəticəsində ölkənin dayanıqlı inkişaf dinamikasına nail olunmuşdur. İdarəetmə mexanizmi mütəmadi olaraq təkmilləşdirilmiş, səmərəli dövlət idarəçiliyinin, təhlükəsizliyinin, sabitliyin gücləndirilməsi ilə bağlı vaxtında görülən tədbirlər müstəqiliyimizin daha da möhkəmləndirilməsini, dövlətimizin qüdrətinin artmasını, xalqımızın əmin-amanlığının və rifah halının yüksəlməsini təmin etmişdir.**



Möhtərəm Prezidentimizin rəhbərliyi altında qəbul edilmiş regionların sosial-iqtisadi inkişafı Dövlət proqramlarının və "Strateji yol xəritələri"nin dəqiq mexanizmlərlə icrası inkişafın dinamizmini artırır və əhatəsini daha da genişləndirir. Sürətli, yüksək templi bu irəliləyiş dövlətin yürütdüyü daxili və xarici siyasətin düzgünlüyünün düşünülmüş olması və müasir tələblərə cavab verə bilməsi sayəsində mümkün olmuşdur. Təbii ki, qazanılan nailiyyətlərdə ölkə rəhbərinin güclü, prinsipial siyasi iradəsinin, vaxtında düzgün qərarlar qəbul etməsinin, xalqımızın da möhtərəm Prezidentimizin strateji kursunun dəstəkləməsində ona olan inamının böyük rolu olmuşdur.

Ölkəmizdə köklü iqtisadi islahatlar həyata keçirilmiş, bölgələrdə infrastruktur layihələri icra edilmişdir. Bu layihələr həm ölkəmizin ümumi inkişafına böyük təkan vermiş, həm də bizim nəhəng transmilli infrastruktur layihələrimiz Avrasiyanın enerji və nəqliyyat xəritəsini dəyişmişdir.

Meliorasiya və su təsərrüfatı sistemi ölkə iqtisadiyyatının mühüm və ayrılmaz bir parçası olaraq, qazanılmış nailiyyətlərdə öz payı olan sahəyə, eyni zamanda başlanılmış genişmiqyaslı islahatların ünvanına çevrilmişdir. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti tərəfindən meliorasiya və irriqasiya sistemlərinin normal istismarının təşkili, tələb olunan həcmlərdə təmir-bərpa işlərinin görülməsi, suvarılan torpaqların su təminatının və meliorativ vəziyyətinin yaxşılaşdırılması, sel və daşqın sularına qarşı mübarizə işlərinin davam etdirilməsi və digər sahələrdə müvafiq tədbirlər həyata keçirilmişdir.

Belə ki, bütün maliyyə mənbələri hesabına 2004-2018-ci illərdə 4,2 min kilometr uzunluğunda suvarma kanallarının, 2,8 min km uzunluğunda kollektor-drenaj şəbəkələrinin tikintisi, yenidənqurulması və bərpası, 423 min hektar sahədə torpaqların su təminatının və 257 min hektar sahədə meliorativ vəziyyətinin yaxşılaşdırılması işləri yerinə yetirilmiş, 153 min hektar yeni suvarılan torpaq sahələri əkin dövriyyəsinə daxil edilmişdir. Mövcud torpaq mühafizə bəndlərinin 800 km-dən artıq hissəsi əsaslı surətdə hündürləndirilmiş və möhkəmləndirilmiş, çaylarda sel və daşqınlara qarşı 187 km-dən artıq muhafizə tədbirləri həyata keçirilmiş, əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün 2260 ədəd subartezian quyusu qazılaraq istifadəyə verilmişdir. Ümumi sutututmu 456 milyon kubmetr olan 4 su anbarı (Taxtakörpü, Şəmkirçay, Tovuzçay, Göytəpə) tikilmiş, eləcə də ümumi sututumu 15,5 milyon kubmetr olan 3 su anbarı isə (Pirsaatçay, Zoğalavaçay, Ləvain) təmir-bərpa edilmişdir.

Dünya Bankının krediti ilə 140 min hektar suvarılan sahələrə xidmət edən Araz çayı üzərindəki Bəhrəmtəpə hidroqovşağının, respublikanın 9 rayonunun və Naxçıvan MR-in (Babək və Şərur rayonları) 52 min hektara yaxın ərazisində suvarma-drenaj şəbəkələrinin təmir-bərpası işləri 2010-cu ildə başa çatdırılmışdır. 2011-ci ildən isə respublikanın daha 15 rayonunda Sudan İstifadəedənlər Birliklərinin institusional gücləndirilməsi və onların 85 min hektar xidmət ərazilərində təsərrüfatdaxili suvarma-drenaj şəbəkələrinin təmir-bərpası işlərinə başlanılmışdır. Bu məqsədlə layihə çərçivəsində 198 ədəd ofis binası, respublikanın 4 rayonunda Regional Dəstək Mərkəzləri tikilmiş və 88 ədəd ekskavator alınaraq Sudan İstifadəedənlər Birliklərinin balansına verilmişdir. Layihədə nəzərdə tutulduğundan 39,4% artıq, yəni 119 min hektara yaxın sahədə suvarma və drenaj şəbəkələrinin bərpası, yenidənqurulması işləri həyata keçirilmişdir.

Eyni zamanda respublikanın 8 rayonunda (Ağsu, İsmayıllı, Siyəzən, Şabran, Cəlilabad, Lerik, Masallı və Yardımlı) içməli su təchizatı və kanalizasiya sistemləri infrastrukturunun bərpası və tikintisi işləri davam etdirilmişdir.

"Samur-Abşeron suvarma sisteminin yenidən qurulması" layihəsinə daxil olan Xanarx kanalının tikintisi 2006-cı ildə, Samur çayı üzərində yerləşən Baş Suqəbuledici qurğunun bərpası, Samur çayı yaxınlığında Baş su durulducunun tikintisi, Samur-Abşeron kanalının ilk 50 km-lik hissəsinin və bu hissədə yerləşən uzunluğu 185,7 km olan təsərrüfatlararası kanalların yenidənqurulması işləri 2007-ci ildə başa çatdırılmışdır. Respublikanın 500 min hektar suvarılan sahələrindən duzlu qrunt sularının Xəzər dənizinə axıdılmasını təmin edən Baş Mil-Muğan Kollektorunun 3-cü 28 km-lik hissəsinin tikintisi 2006-cı ildə başa çatdırılaraq Mil-Qarabağ Kollektoru ilə birləşdirilmişdir.

Samur-Abşeron kanalının 50-ci km-dən suyun Taxtakörpü su anbarına verilməsi məqsədi ilə 2008-ci ildə tikintisinə başlanılmış uzunluğu 32 km olan Vəlvələçay-Taxtakörpü kanalının, ümumi sututumu 268,4 milyon kubmetr olan Taxtakörpü su anbarının (ümumi gücü 25 MVt olan Su Elektrik Stansiyası ilə birlikdə) və uzunluğu 108 km-ə yaxln olan Taxtakörpü-Ceyranbatan kanalının tikinti işləri 2013-cü ildə başa çatdırılmışdır.

Su və torpaq ehtiyatlarından istifadə edilməsi səmərəliliyinin yüksəldilməsi istiqamətində su təsərrüfatı obyektlərində mutəmadi olaraq təmir-bərpa və təmizləmə işləri aparılmışdır. Suvarma və kollektor-drenaj şəbəkələrində 671 milyon kubmetr həcmində lildəntəmizləmə işləri görülmüş, 73 min ədəd hidrotexniki qurğu təmir edilmiş, 400-dən artıq nasos stansiyaları əsaslı surətdə təmir-bərpa edilmiş, çay məcralarında 183 milyon kubmetr həcmində məcratəmizləmə və nizamlama işləri yerinə yetirilmiş, 250 min kubmetr həcmində şax-daş, faşın-qamış və qabion bəndlər quraşdırılmış, daş-beton bəndlərdə 295 min kubmetr həcmində təmir işləri görülmüşdür.

Həyata keçirilmiş məqsədyönlü və uğurlu fəaliyyətlərin nəticəsində mövcud meliorasiya və irriqasiya obyektlərinin istismarı xeyli yaxşılaşmış, sahəyə ayrılan investisiya vəsaitinin həcmi 20 dəfə, istismar xərclərinə ayrılan vəsait 6 dəfəyə qədər artmış, sistem üzrə işçilərin əmək haqqı 7,4 dəfə artmış, sahənin maddi-texniki bazası xeyli gücləndirilmiş, 2100-dən artıq maşın və mexanizmlər alınmışdır.

2013-cü ilin sonlarında istifadəyə verilmiş Taxtakörpü su anbarına 2017-ci il 15 iyun – Qurtuluş Günü ərəfəsində tam layihə həcmində su doldurulmuş və tam gücü ilə işləməyə başlamışdır.

Taxtakörpü su anbarı zonasında ümumilikdə nəzərdə tutulan 30 min hektara yaxın yeni suvarılacaq torpaqlardan 2017-ci ilin sonuna görülmüş meliotrativ tədbirlər nəticəsində 20719 hektar (ondan 10970 hektar yeni suvarılan) sahə əkin dövriyyəsinə cəlb edilmişdir. Eyni zamanda "Şabran Aqropark"a məxsus 1738 ha torpaq sahəsi suvarma suyu ilə təmin edilmiş və bu torpaqların meliorativ vəziyyəti yaxşılaşdırılmışdır.

15 noyabr 2014-cü ildə möhtərəm Prezident cənab İlham Əliyevin iştirakı ilə açılış mərasimi keçirilmiş Şəmkirçay su anbarı zonasında 2015-ci ildə əkin sahələrini suvarma suyu ilə təmin edəcək 60,5 km uzunluğunda magistral kanalların tikintisi işləri başa çatdırılmış, Şəmkir, Samux və Göygöl rayonlarının 35 min hektara yaxın əkin sahələrinin su təminatı yaxşılaşdırılmışdır. Şəmkir və Göygöl rayonlarının 4 min hektar, eləcə də "Şəmkir Aqropark"ın 543 hektar yeni suvarılan sahələri suvarma suyu ilə təmin edilmişdir.

Şəmkirçay su anbarından Şəmkir və Göygöl rayonlarının əkin sahələrinə suvarma suyunun verilməsi üçün paylayıcı kanalların, eləcə də Goranboy rayonunun əkin sahələrini suvarma suyu ilə təmin etmək məqsədi ilə uzunluğu 27,9 km olan Şəmkir-Samux-Goranboy suvarma magistral kanalının 2-ci növbəsinin tikintisinə başlanılmışdır. Kanalın İpək yoluna qədər olan 8,5 km-lik hissəsi tamamlanaraq Samux və Goranboy rayonlarının 8 min hektar (ondan 980 hektarı yeni suvarılacaq torpaqlardır) sahəsinə suvarma suyu çatdırılmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 19 avqust 2017-ci il tarixində Samux və Goranboy rayonlarının əkin sahələrinə suvarma suyunun verilməsi mərasimlərində iştirak etmişdir.

Sovetlər Birliyi dövründən tikintisi yarımçıq qalmış Tovuz və Şəmkir rayonlarının 20 min hektara yaxın əkin sahələrinin su təminatının yaxşılaşdırılmasına və yeni suvarılacaq torpaqların istifadəyə verilməsinə imkan yaradan, ümumi sututumu 20 milyon kubmetr olan Tovuzçay su anbarının inşası 2016-cı ildə başa çatdırılmışdır.

Sabirabad rayonu ərazisində "H" kanalının 7,8 km hissəsinin beton məcrada qurğularla birlikdə tikintisi 2017-ci ilin 1 may tarixinə tamamlanmışdır. Bununla 1-ci mərhələdə 4 min ha əkin sahələrinin su təminatı yaxşılaşdırılmış və 200 ha yeni suvarılan torpaq sahəsi suvarma suyu ilə təmin edilmişdir. Eyni zamanda Sabirabad rayonunun qış otlaqlarında 1-ci mərhələdə 5000 ha yeni torpaq sahəsinə, eləcə də Yuxarı Mil kanalında tikinti işləri davam etdirilərək Ağcabədi rayonunda 2700 ha sahəyə suvarma suyu çatdırılmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 24 sentyabr 2017-ci il tarixində Neftçala magistral kanalında görülən işlərlə tanış olmuş və Kür çayından 1-ci mərhələdə rayonun 7770 ha yeni suvarılacaq və 970 ha mövcud əkin sahələrinə suvarma suyunun verilməsi mərasimində iştirak etmişdir.

Azərbaycan Respublikası Prezidentinin ölkədə taxılçılığın, pambıqçılığın, tütünçülüyün, baramaçılığın və digər sahələrin inkişafı, eləcə də aqroparkların və iri təsərrüfatların yaradılması ilə əlaqədar verdiyi tapşırıqların icrası olaraq Səhmdar Cəmiyyəti meliorasiya və irriqasiya sistemlərinin normal istismarının təşkili, suvarılan torpaqların su təminatının və meliorativ vəziyyətinin yaxşılaşdırılması, sahələrin genişləndirilməsi, sel və daşqın sularına qarşı mübarizə və digər istiqamətlərdə əvvəlki illərdə olduğu kimi, 2018-ci ildə də öz uğurlu fəaliyyətini davam etdirmişdir.

Səhmdar Cəmiyyəti üzrə bütün mənbələrdən ayrılmış vəsait hesabına 10 yeni və 33 keçid layihəsi üzrə layihələndirmə, əsaslı tikinti-quraşdırma, yenidənqurma və bərpa işləri yerinə yetirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin ölkədə iri taxılçılıq və pambıqçılıq təsərrüfatlarının yaradılması ilə əlaqədar müvafiq sərəncamlarının icrası olaraq Sabirabad rayonunun Sarxanbəyli, Moranlı, Bala Həşimxanlı, Əliləmbəyli kəndlərinin 7551 ha əkin sahələrinin su təminatının yaxşılaşdırılması üçün 8,6 km uzunluğunda magistral təzyiqli boru kəmərinin, nasos stansiyasının, dəmir-beton üzlüklü magistral kanalın 23,0 km qurğularla birlikdə tikintisi üzrə işlər yerinə yetirilmiş və obyektin tikintisi tamamlanmışdır. Ağcabədi rayonunun 1900 hektar yeni suvarılacaq torpaq sahəsinə suvarma suyunun çatdırılması üçün Yuxarı Mil kanalının davamı olaraq onun 6,0 km-lik hissəsi qurğularla birlikdə tikilmişdir.

Eyni zamanda Sabirabad rayonunun 9319 ha və Biləsuvar rayonunun 1631 ha qış otlaq sahəsinə Kür çayından suvarma suyunun çatdırılması üçün 15 km uzunluğunda dəmir-beton üzlüklü magistral kanalın, 6,1 km uzunluğunda basqılı boru kəmərinin, 14 km uzunluğunda açıq kollektorların və 3277 pm monolit dəmir-beton üzlüklü sutullayıcı kanalın tikintisi işləri yerinə yetirlmişdir.

2017-ci ildə torpaq məcrada inşa olunmuş 54,2 km uzunluğunda Araz çayının yeni qol-kanalının beton üzlüyə alınması işləri 2018-ci ildə tamamlanmış və əlavə olaraq 13145 ha (Saatlı - 2500 ha, İmişli - 9645 ha və Biləsuvar - 1000 ha) yeni suvarılacaq torpaq sahələrinə suvarma suyu çatdırılmışdır. 2018-ci il oktyabrın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə Araz çayının yeni qol kanalının istifadəyə verilməsinin açılış mərasimi keçirilmişdir. Arazın yeni qolundan torpaq sahələrinə suvarma suyunun verilməsi üçün paylayıcı kanalların tikintisi üzrə 1-ci mərhələdə İmişli (8357 ha) və Biləsuvar (8506 ha) rayonlarının 16863 ha əkin sahələrinin su təminatının yaxşılaşdırılması üçün 37 km uzunluğunda paylayıcı kanalların qurğularla birlikdə tikintisi aparılmışdır.

Neftçala rayonunun 12433 ha əkin sahələrinin su təminatının yaxşılaşdırılması məqsədi ilə Neftçala magistral kanalının layihə ilə nəzərdə tutulan qalan 11,4 km hissəsinin hidrotexniki qurğularla birlikdə tikintisi tamamlanmışdır.

2018-ci il iyunun 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə Şəmkir-Samux-Goranboy magistral suvarma kanalının ikinci növbəsinin İpək yolu ilə kəsişmə qurğusunun və ondan sonrakı 4,95 km-lik hissəsinin açılış mərasimi keçirilmişdir. Eyni zamanda kanalın son 14 km-nin 5,5 km-lik hissəsinin tikintisi ilə 11788 ha (ondan 1570 hektar yeni suvarılacaq sahələrdir) torpaq sahəsinə suvarma suyu çatdırılmışdır.

Aqroparkların və iri təsərrüfatların yaradılması məqsədi ilə Goranboy, Samux, Şabran, Xaçmaz və Qax rayonlarında 7986 ha torpaq sahələrinə suvarma suyunun verilməsi üçün suvarma kanallarının və hidrotexniki qurğuların tikintisi işləri başa çatdırılmışdır. Qax rayonunda yaradılan Aqroparka məxsus 1553 hektar yeni suvarılacaq torpaq sahəsinə suvarma suyunun verilməsi üçün tikinti işləri başa çatdırılmış və 2018-ci il oktyabrın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə "Ulu Aqro" MMC-nin Qax Aqroparkının açılış mərasimi keçirilmişdir.

Eyni zamanda Xəzər rayonunun Qoşaqışlaq kəndi ərazisində 758 hektar yeni torpaq sahələrinə suvarma suyunun çatdırılması üçün 7 km uzunluğunda təzyiqli boru kəmərinin və 50 min kubmetrlik basqılı hovuzun beton işləri tamamlanmışdır. Xəzər və Pirallahı rayonlarında yerləşən 1227 ha torpaq sahələrinə Abşeron Magistral kanalından, Xızı rayonu ərazisində yerləşən 380 hektar torpaq sahəsinə Taxtakörpü-Ceyranbatan kanalından suvarma suyunun verilməsi üçün müvafiq tədbirlər başa çatdırılmışdır.

Şirvan düzünə yeni həyat verəcək Yuxarı Şirvan kanalının yenidənqurulması üzrə layihə sənədlərinin hazırlanması işləri davam etdirilmişdir. Layihə çərçivəsində mövcud suvarılan və suvarılması nəzərdə tutulan yeni sahələrin müəyyənləşdirilməsi üçün Yevlax, Ağdaş, Ağsu, Kürdəmir, Göyçay, Hacıqabul və Şamaxı rayonları üzrə yer quruluşu, topoqrafiya, geoloji-axtarış və digər işlər yerinə yetirilmiş, kanalın 123 km-lik hissəsinin yenidənqurulmasının layihə-smeta sənədləri hazırdır. Kanalın yenidənqurulmasında əsas məqsəd gələcəkdə kənd təsərrüfatı sektoruna xidmət etmək üçün suburaxma qabiliyyəti daha böyük olan yeni bir magistral kanalın yaradılmasıdır. Buna görə yeni Yuxarı Şirvan kanalı ümumi uzunluğu təxminən 190 km, suburaxma qabiliyyəti 180 $m^3$/san olan beton üzlükdə inşa olunacaq və əlavə sahələri suvarma suyu ilə təmin edəcəkdir.

Cəbrayıl rayonunun Cocuq Mərcanlı (400 hektar) və Füzuli rayonunun ona bitişik Mirzənağılı kəndlərinin (280 hektar) olmaqla ümumilikdə 680 hektar əkin sahəsinə Araz çayından suyun verilməsi üzrə işlər tamamlanaraq istismara verilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 12 mart 2018-ci il tarixli Sərəncamı ilə respublikanın 38 şəhər və rayonunun 248 yaşayış məntəqəsində 8740 hektar əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına, habelə əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün 300 ədəd subartezian quyusunun qazılması işləri başa çatdırılmışdır. 5 noyabr 2018-ci il tarixli Sərəncamı ilə Ağdam rayonunda əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması üçün əlavə olaraq 35 ədəd subartezian quyusunun qazılması işləri tamamlanmaq üzrədir.

Sel və daşqın təhlükəli çayların zərərli təsirinə qarşı mübarizə və qəza vəziyyətinin aradan qaldırılması tədbirləri üzrə Samur-Abşeron kanalının Qudyalçayla kəsişməsində dükerin, Xanarx kanalının Qusarçayla və Qudyalçayla kəsişməsində akvedukların və Vəlvələçayda sugötürən qurğunun və Samur-Abşeron kanalının kəsişməsində dükerin mühafizəsi məqsəldi ilə tikinti işləri başa çatdırılmışdır. Eyni zamanda respublikanın Göyçay, İsmayıllı, Qəbələ, Oğuz, Ağsu, Şəki, Qax, Zaqatala, Balakən, Qusar, Astara, Lənkəran, Ağcabədi, Qazax və Gədəbəy rayonlarının ərazisindən keçən ən təhlükəli çaylarda sahilbərkitmə tədbirləri üzrə 4195 metr mühafizə divarlarının tikintisi işləri aparılmışdır.

Dünya Bankının krediti ilə həyata keçirilən "Milli Su Təchizatı və Kanalizasiya Xidmətləri üzrə İkinci Layihə" çərçivəsində respublikanın 5 rayonunda (Şabran, Siyəzən, Lerik, Yardımlı və Cəlilabad) içməli su təchizatı və kanalizasiya sistemləri infrastrukturunun bərpası və tikintisi işləri davam etdirilmişdir. Lerik rayonunda işlər yekunlaşdırılmış və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 15 oktyabr 2018-ci il tarixində şəhərin içməli su sisteminin və kanalizasiya şəbəkəsinin əhalinin istifadəsinə verilməsi mərasimində iştirak etmişdir.

Dövlət Neft Fondundan ayrılmış vəsait hesabına "Samur-Abşeron suvarma sisteminin yenidən qurulması" layihəsinə daxil olan "Şabran, Siyəzən və Xızı rayonları ərazisində mövcud suvarılan torpaqların su təminatının yaxşılaşdırılması və yeni suvarılan torpaqların istifadəyə verilməsi" layihəsi üzrə Şabran rayonunda 4762 hektar yeni suvarılan torpaqlara suvarma suyunun çatdırılması və 7172 hektar sahədə su təminatının yaxşılaşdırılması üçün suvarma və kollektor-drenaj şəbəkəsinin tikintisi işləri aparılmışdır.

2018-ci ildə respublika üzrə 1392,0 min hektar sahədə kənd təsərrüfatı bitkilərinin suvarma suyu ilə təmin edilməsi üçün mənbələrdən 9100 milyon kubmetr su götürülmüş, su ayrıclarından 6500 milyon kubmetr su verilmiş və bitkilər suvarma suyu ilə 3,2 dəfə təmin edilmişdir.

Bunun üçün suvarma sistemlərində və kollektor-drenaj şəbəkələrində 62,0 milyon kubmetr həcmində lildəntəmizləmə işləri görülmüş, 5900 hidrotexniki qurğu, 156 subartezian quyusu, 270 nasos və mühərrik təmir edilmişdir.

Bu il böyüklüyünə və kənd təsərrüfatına təsirinə görə xüsusi rola malik olan Taxtakörpü və Şəmkirçay su anbarları zonalarında magistral və paylayıcı suvarma kanallarının tikintisi işləri davam etdiriləcəkdir.

Taxtakörpü su anbarı zonasına daxil olan Şabran rayonu üzrə 2019-cu ildə 5213 hektar sahədə torpaqların su təminatının yaxşılaşdırılması, 3855 hektar yeni suvarılacaq torpaqların suvarma suyu ilə təmin edilməsi və torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılması nəzərdə tutulur.

Eyni zamanda Şəmkir maşın kanalının ikinci növbəsinin tikintisinin davam etdirilərək son 8,5 km-lik hissəsinin tikintisi tamamlanmaqla Goranboy rayonunun daha 6796 ha (ondan 5743 ha yeni suvarılacaq torpaqlardır) sahəyə suvarma suyu çatdırılacaqdır. Eyni zamanda kanalın üçüncü növbəsinin layihə sənədlərinin hazırlanması işləri tamamlanacaqdır. Şəmkir maşın kanalının keçən əsrin 80-ci illərindən tikintisi yarımçıq qalmış Kür çayı üzərindəki mövcud 1-ci və 2-ci pillə nasos stansiyalarının hər birində 3 nasos aqreqatının quraşdırılması və 7315 metr boru kəmərinin tikintisi ilə suvarma qabiliyyəti artırılacaqdır. Bununla da Şəmkir, Samux və Goranboy rayonlarında mövcud suvarılan torpaqların su təminatı yaxşılaşdırılacaqdır.

Xəzər və Pirallahı rayonlarında zeytun və badam bağları salınacaq ərazilərin suvarma suyu ilə təmin edilməsi üçün tikinti işləri davam etdiriləcəkdir.

Respublikanın şəhər və rayonlarında əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, yeni suvarılacaq torpaqların suvarma suyuna, habelə əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün yeni subartezian quyularının qazılması işləri həyata keçiriləcəkdir.

Yuxarı Şirvan kanalının yenidənqurulmasının işçi layihə və tender sənədlərinin hazırlanması işləri davam etdiriləcəkdir.

Sabirabad və Salyan rayonlarında yerləşən qış otlaqlarında meliorativ tədbirlərin aparılması layihəsi çərçivəsində Salyan rayonunun 12589 ha qış otlaq sahəsində kompleks meliorativ tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

2019-cu ildə kənd təsərrüfatının inkişafına bilavasitə təsir edən bu iri infrastruktur layihələrində nəzərdə tutulan meliorativ tədbirlərin həyata keçirilməsi nəticəsində yeni suvarılacaq torpaqların istifadəyə verilməsi və əkin sahələrinin su təminatının yaxşılaşdırılması nəticəsində ölkədə ixracyönümlü kənd təsərrüfatı məhsullarının inkişafına geniş imkanlar yaradılacaqdır.

Dövlət başçısı İlham Əliyevin müvafiq Fərman və Sərəncamları ilə respublikamızda pambıqçılığın, taxılçılığın, baramaçılığın, tütünçülüyün, üzümçülüyün, sitrus meyvələrinin və digər kənd təsərrüfatı məhsulları istehsalının inkişaf etdirilməsi ilə əlaqədar təsdiq edilmiş Dövlət Proqramları və Tədbirlər planlarında, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramında, Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsində meliorasiya və su təsərrüfatı sahəsi üzrə geniş tədbirlər nəzərdə tutulmuşdur.

Möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən ölkə melioratorlarının əməyinə və sahənin roluna verilən yüksək qiymət bizi daha böyük məsuliyyətlə işləməyə və yeni-yeni nailiyyətlər qazanmağa sövq edir. Bu böyük diqqət və qayğıya cavab olaraq, cəmiyyətin kollektivi mövcud meliorasiya və irriqasiya sistemlərinin qorunub saxlanılması, lazımi səviyyədə istismarının həyata keçirilməsi, təmir-bərpa işlərinin təşkili sahəsində qarşıya qoyulmuş tapşırıqları tam məsuliyyətlə dərk edərək onların vaxtında və layiqincə yerinə yetirilməsi üçün bundan sonra da bütün bacarıq və imkanlarından istifadə edəcək, ölkə əhalisinin ərzaq məhsulları ilə etibarlı təminatında üzərilərinə düşən vəzifələri şərəflə yerinə yetirəcəklər.

**Əhməd ƏHMƏDZADƏ,**
**Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri.**







# Səudiyyə Ərəbistanı ilə enerji sahəsində əməkdaşlığın genişləndirilməsi müzakirə olunub

**Səudiyyə Ərəbistanı ilə enerji sahəsində əməkdaşlığın genişləndirilməsi müzakirə edilib.**



Energetika Nazirliyindən AZƏRTAC-a bildirilib ki, energetika naziri Pərviz Şahbazov ölkəmizdə səfərdə olan Səudiyyə Ərəbistanı Krallığının Baş İnvestisiya Qurumunun rəhbəri, Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında Müştərək Komissiyanın həmsədri İbrahim bin Əbdülrəhman əl-Ömərin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb. Görüşdə tarixi köklərə malik, dostluğa əsaslanan ikitərəfli münasibətlərin iqtisadi, o cümlədən enerji sahəsində inkişafı, yeni əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsi və investisiyaların cəlbi ilə bağlı məsələlər müzakirə olunub.

P.Şahbazov Səudiyyə Ərəbistanı ilə OPEC+ çərçivəsində, eləcə də ikitərəfli formatda əməkdaşlıq əlaqələrinin hazırkı səviyyəsi, ölkənin neft-qaz, bərpaolunan enerji sahələrində mövcud vəziyyət, planlaşdırılan layihələr və yeni imkanlar barədə ətraflı məlumat verib. Nazir yeni əməkdaşlıq təkliflərinin reallaşdırılması istiqamətində mühüm addım kimi iki ölkənin müvafiq nazirlikləri arasında birgə Texniki Komissiyanın fəaliyyətini qeyd edib.

İbrahim bin Əbdülrəhman əl-Ömər isə bildirib ki, Səudiyyə Ərəbistanı Azərbaycanla kənd təsərrüfatı, turizm, nəqliyyatla yanaşı, enerji sektorunda əməkdaşlığı genişləndirməkdə və investisiya qoymaqda maraqlıdır. Bunun üçün "Yol Xəritəsi" tərtib olunmalı və şirkətlərin qarşılıqlı fəaliyyəti təmin edilməlidir.

Görüşdə neft-kimya, qaz emalı sahələrində Səudiyyə Ərəbistanı şirkətlərinin iştirakı, eləcə də bərpaolunan enerji üzrə "ACWA Power" şirkəti ilə anlaşma memorandumunun imzalanması barədə fikir mübadiləsi aparılıb.

**AZƏRTAC**

# Səudiyyə Ərəbistanı Azərbaycana investisiya qoyuluşunda maraqlıdır

***Bu il Azərbaycan ixrac missiyası Səudiyyə Ərəbistanına səfər edəcək***



**İqtisadiyyat naziri Şahin Mustafayev ölkəmizdə səfərdə olan Səudiyyə Ərəbistanı Krallığının Baş İnvestisiya Qurumunun rəhbəri, Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında Müştərək Komissiyanın həmsədri İbrahim bin Əbdülrəhman əl-Ömərin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüşdə Ş.Mustafayev ölkələrimiz arasında əlaqələrin inkişafında Azərbaycan Respublikası Prezidentinin Səudiyyə Ərəbistanına səfərlərinin, aparılan danışıqların mühüm əhəmiyyətini vurğulayıb, yüksək səviyyəli siyasi münasibətlərin iki ölkə arasında iqtisadi əməkdaşlığın genişlənməsi üçün əlverişli zəmin yaratdığını diqqətə çatdırıb. Qeyd edib ki, ölkələrimiz arasında möhkəm müqavilə-hüquq bazası yaradılıb, Azərbaycan və Səudiyyə Ərəbistanı biznes dairələri arasında əlaqələr uğurla inkişaf edir, iqtisadi əməkdaşlığın daha da genişləndirilməsi məqsədilə Bakıda və Ər-Riyadda biznes forumlar keçirilib, Ər-Riyad və Ciddə şəhərlərinə ixrac missiyaları təşkil olunub. Cari ildə də Azərbaycan ixrac missiyası Səudiyyə Ərəbistanına səfər edəcək.

Nazir deyib ki, Səudiyyə Ərəbistanı şirkətləri indiyədək Azərbaycan iqtisadiyyatına 370 milyon dollar investisiya yatırıb. Səudiyyə İnkişaf Fondu ilə məktəb tikintisi, kanal və yol tikintisi sahələrində uğurlu maliyyə əməkdaşlığı həyata keçirilib, su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihələri üzrə işlər davam etdirilir. Son illərdə Səudiyyə Ərəbistanından Azərbaycana gələn turistlərin sayı əhəmiyyətli dərəcədə artıb. Bakıda keçirilən Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında Müştərək Komissiyanın iclası, həmçinin iş adamları üçün təşkil edilmiş işgüzar görüş ölkələrimiz arasında əməkdaşlığa töhfə verir.

Ş.Mustafayev Səudiyyə Ərəbistanı iş adamlarını Azərbaycandakı əlverişli işgüzar şəraitdən yararlanmağa, sənaye parklarına və məhəllələrinə, aqroparklara investisiya yatırmağa dəvət edib.

Səudiyyə Ərəbistanı Krallığının Baş İnvestisiya Qurumunun rəhbəri, Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında Müştərək Komissiyanın həmsədri İbrahim bin Əbdülrəhman əl-Ömər Azərbaycandakı sabitlikdən, inkişafdan məmnunluğunu, ölkəsinin Azərbaycana investisiya qoyuluşunda marağını diqqətə çatdırıb, iki ölkə arasında əlaqələrin bundan sonra da inkişaf edəcəyinə əminliyini bildirib.

Görüşdə energetika, investisiyalar, alternativ enerji, kənd təsərrüfatı, kimya, turizm sahələrində əməkdaşlıq, birgə layihələrin icrası və sair məsələlər müzakirə olunub.

İbrahim bin Əbdülrəhman əl-Ömər Səudiyyə Ərəbistanı iş adamlarının Azərbaycan sahibkarları ilə fəal əməkdaşlıqda maraqlı olduqlarını bildirib və bu məqsədlə hər iki ölkənin biznes dairələrinin faydalana biləcəyi elektron bazanın yaradılmasını təklif edib.

**AZƏRTAC**

# "Gəncə - 2019-cu ilin Avropa İdman Şəhəri" layihəsinin təntənəli açılış mərasimi keçirilib





**Martın 5-də - Bədən Tərbiyəsi və İdman Günündə Nizami yurdunda "Gəncə - 2019-cu ilin Avropa İdman Şəhəri" layihəsinin təntənəli açılış mərasimi keçirilib.**

Heydər Əliyev Park Kompleksində keçirilən açılış mərasimində Avropa İdman Paytaxtları və Şəhərləri Federasiyasının rəsmi nümayəndələri, Gürcüstanın Batumi şəhəri meriyasının təmsilçiləri, Azərbaycanın gənclər və idman naziri Azad Rəhimov, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Azərbaycan Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, eləcə də ölkəmizin tanınmış idmançıları, yerli və xarici qonaqlar iştirak ediblər.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, əvvəlcə tədbir iştirakçıları Heydər Əliyev Mərkəzinin önündə Ulu Öndərin abidəsini ziyarət ediblər.

Təntənəli açılış mərasiminə Heydər Əliyev Mərkəzinin önündən start verilib. Mərkəzdən amfiteatradək olan məsafədə qurulan pavilyonlarda fərqli idman növləri üzrə təmsil etdikləri idman federasiyaları və idman klublarının üzvləri nümunəvi çıxışlarını təqdim ediblər.

Nazir Azad Rəhimov Gəncə şəhərini yerli və beynəlxalq əhəmiyyətli yarışlarda təmsil edən gənclərlə və veteran idmançılarla görüşüb.

Təntənəli mərasim Dövlət himinin səslənməsi ilə başlayıb.

Açılış mərasimində çıxış edən Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov tarixi əhəmiyyətli hadisə - "2019-cu ilin Avropa İdman Şəhəri" layihəsinin açılışı münasibətilə gəncəliləri və idman ictimaiyyətini təbrik edib.

Bildirilib ki, Azərbaycanda böyük idman hərəkatı ayrı-ayrı bölgələrdə olduğu, kimi Gəncə şəhərində də uğurla həyata keçirilir. Gəncə idmançıları hər il müxtəlif beynəlxalq yarışlarda iştirak edərək ildən-ilə öz nailiyyətlərini yüksəldirlər.

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş, bu gün isə Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən dövlət gənclər siyasətinin nailiyyətlərindən danışan Niyazi Bayramov, idmanın ayrı-ayrı sahələrinə, yetmə və peşəkar idmançılara yaradılan şəraiti, göstərilən diqqət və qayğını yüksək dəyərləndirib.

Qeyd edilib ki, 2016-cı ildə Avropanın Gənclər Paytaxtı, 2017-ci ildə MDB ölkələrinin Mədəniyyət Paytaxtı olan Gəncə "ACES Europe" təşkilatı tərəfindən bu il üçün Avropanın İdman Şəhəri tituluna layiq görülüb.

Vurğulanıb ki, Gəncədə hazırda üç idman məktəbi fəaliyyət göstərir. Bu məktəblərin yetirmələri həm ölkə, həm Avropa, həm də dünyamiqyaslı yarışlarda yüksək nailiyyətlər qazanırlar. Şəhərdə peşəkar və həvəskar futbol klubları yaradılıb. Gəncədə ölkəmizin əksər bölgələrində olduğu kimi müasir olimpiya idman kompleksi fəaliyyət göstərir.

Sonda Niyazi Bayramov əminliklə ifadə edib ki, gəncəli idmançılar Azərbaycanda bu sahəyə, eləcə də onlara göstərilən dövlət dəstəyinə beynəlxalq yarışlarda bayrağımızı ucaltmaqla cavab verəcəklər.

Tədbirdə çıxış edən gənclər və idman naziri Azad Rəhimov beynəlxalq layihənin açılışı münasibətilə idman ictimaiyyətini və gəncəliləri təbrik edib.

Martın 5-nin ölkəmizdə Bədən Tərbiyəsi və İdman Günü olduğunu deyən Azad Rəhimov bildirib ki, bu tarix Prezident İlham Əliyevin 2005-ci il 4 mart tarixli Sərəncamına əsasən qeyd olunur. Məhz 1995-ci il martın 5-də ulu öndər Heydər Əliyev Bakı İdman Sarayında dünya və Avropa çempionatlarının qalibləri və mükafatçıları ilə görüşüb, İdman Fondunu təsis edib, bədən tərbiyəsi və idmanın inkişafında yeni strategiyanın təməlini qoyub. Prezident İlham Əliyevin hələ 1997-ci ildə Milli Olimpiya Komitəsinin rəhbəri seçilməsindən sonra ölkəmizdə idmana, bədən tərbiyəsinə diqqət daha da artıb və idmanın maddi-texniki bazasının möhkəmləndirilməsi, idmançıların peşəkar səviyyədə hazırlanmasına göstərilən qayğı tezliklə öz müsbət nəticəsini göstərib.

Nazir Gəncənin 2019-cu ildə Avropanın İdman Şəhəri titulunu şərəflə daşıyacağını, Nizami yurdu idmançılarının isə hər il olduğu kimi bu il də yüksək nailiyyətlər qazanacağını deyib.

Açılış mərasimində çıxış edən Azərbaycan Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə bildirib ki, Gəncənin 2019-cu ildə Avropanın İdman Şəhəri tituluna layiq görülməsi bu şəhərin zəngin idman ənənələrinə malik olduğunun təsdiqidir. "1997-ci ildə İlham Əliyev Milli Olimpiya Komitəsinin prezidenti seçildikdən sonra respublikamızda ilk olimpiya komplekslərindən biri məhz Gəncə şəhərində inşa olunub. Bu gün isə Gəncə şəhərində daha bir böyük olimpiya idman kompleksi tikilir. Bu idman sarayı da şəhərdə idmanın inkişafına xidmət edəcək", - deyə Ç.Hüseynzadə qeyd edib.

Sonra Gənclər və İdman Nazirliyinin sifarişi əsasında, xüsusi olaraq layihənin açılış mərasimi üçün hazırlanmış, Gəncənin çoxəsrlik tarixini, müasir inkişafını və idman uğurlarını özündə əks etdirən "Karvan" filmi mərasim iştirakçılarına təqdim olunub.

Tədbir boyu şəhərdə gəzən karvan rəmzi olaraq Gəncənin idman tarixinə səyahət edib və amfiteatra toplaşmış tamaşaçılar bu səyahəti monitor vasitəsilə izləyiblər.

Açılış mərasimində Bakıdan dəvət olunmuş və yerli incəsənət nümayəndələri konsert proqramı ilə çıxış ediblər.

Beləliklə, "Gəncə - 2019-cu ilin Avropa İdman Şəhəri" layihəsinin təntənəli açılış mərasimi öz inkişafının müasir dövrünü yaşayan Nizami yurdunda coşqu ilə qarşılanıb və ictimai əhəmiyyətli ümumşəhər idman bayramına çevrilib.

Xatırladaq ki, 2018-ci il mayın 16-da Gəncə şəhəri 2019-cu ilin Avropa İdman Şəhəri elan edilib. Belçika Krallığının paytaxtı Brüsseldə "ACES Europe"nın təşkilatçılığı ilə Avropanın İdman Paytaxtı və Avropanın İdman Şəhəri titullarını qazanan şəhərlərin rəsmi təltifolunma mərasimi keçirilib. Tədbirdə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramovun başçılıq etdiyi nümayəndə heyəti 2019-cu il üçün Avropanın İdman Şəhəri titulunu əks etdirən rəsmi bayrağı qəbul edib. Avropanın İdman Şəhəri titulunu MDB ölkələri arasında ilk dəfə Gəncə şəhəri qazanıb.

**AZƏRTAC**

# Tehranda Azərbaycan ilə İran arasında iqtisadi əlaqələrin perspektivləri müzakirə edilib

**Azərbaycan Respublikasının iqtisadiyyat naziri, Azərbaycan ilə İran arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının həmsədri Şahin Mustafayevin rəhbərlik etdiyi nümayəndə heyəti Tehranda səfərdədir.**



AZƏRTAC xəbər verir ki, səfər çərçivəsində bir sıra görüşlər keçirilib.

Görüşlərdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və İran İslam Respublikasının Prezidenti Həsən Ruhani arasında qarşılıqlı hörmətə və etimada əsaslanan münasibətlərin ölkələrimizin əlaqələrinin bütün sahələrdə genişlənməsində mühüm rolu vurğulanıb.

İranın yollar və şəhərsalma naziri Məhəmməd Eslami ilə görüşdə ölkələrimizin əlaqələrindən danışan nazir Şahin Mustafayev son illərdə əməkdaşlığın daha da genişləndiyini diqqətə çatdırıb. Bildirilib ki, son 5 ildə Azərbaycan və İran prezidentləri arasında 12 görüş olub, 100-dən çox qarşılıqlı səfərlər təşkil edilib, 24 biznes forum və işgüzar görüş keçirilib. İndiyədək ölkələrimiz arasında 150-dən çox sənəd imzalanıb. Azərbaycanda sənaye, tikinti, xidmət, rabitə, ticarət, nəqliyyat, kənd təsərrüfatı və s. sahələrdə 1000-dən çox İran şirkəti qeydiyyatdan keçib. İran tərəfindən Azərbaycan iqtisadiyyatına 3,4 milyard dollar investisiya yatırılıb.

Nazir Şahin Mustafayev ölkələrimizin sənaye, energetika, kənd təsərrüfatı, ticarət, səhiyyə, turizm, sərhəd-gömrük və digər sahələrlə yanaşı, nəqliyyat-tranzit sahəsində də uğurla əməkdaşlıq etdiyini, Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin inkişafında hər iki ölkənin rolunu vurğulayıb, nəqliyyat dəhlizinin inkişafının Azərbaycan-İran iqtisadi əməkdaşlığının, xüsusilə yükdaşımalar, ticarət və turizm əlaqələrinin genişlənməsinə müsbət təsir göstərəcəyini qeyd edib.

İranın yollar və şəhərsalma naziri Məhəmməd Eslami ölkəsinin Azərbaycanla əlaqələrin genişlənməsinə xüsusi önəm verdiyini, Azərbaycan-İran əlaqələrinin inkişafı istiqamətində ardıcıl tədbirlərin həyata keçirildiyini bildirib.

Səfər çərçivəsində iqtisadiyyat naziri Şahin Mustafayevin rəhbərlik etdiyi nümayəndə heyəti İranın iqtisadi işlər və maliyyə naziri, Azərbaycan ilə İran arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının həmsədri Fərhad Dejpəsənd ilə görüşüb.

Nazir Şahin Mustafayev Azərbaycanın İranla əlaqələrin genişlənməsində maraqlı olduğunu, son illərdə Azərbaycan-İran əlaqələrinin yüksək səviyyəyə çatdığını qeyd edib. Hər iki ölkənin prezidentlərinin əlaqələrin inkişafına böyük önəm verdiyini və Dövlət Komissiyasının işinə dəstək göstərdiyini vurğulayıb.

İki ölkənin iqtisadi-ticari əlaqələri barədə danışan Şahin Mustafayev qeyd edib ki, ötən dövrdə ticarət sahəsində əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində davamlı tədbirlər görülüb, ticarət dövriyyəsinin həcmi 2018-ci ildə 74 faiz artaraq 446 milyon dollara çatıb. Azərbaycan ilə İran birgə layihələri çərçivəsində Neftçala Sənaye Məhəlləsində avtomobil istehsal edilir. Bakıda Azərbaycan-İran klinikası açılıb, Pirallahı Sənaye Parkında birgə əczaçılıq zavodunun təməli qoyulub.

Şahin Mustafayev qarşılıqlı ticarətin həcminin daha da artırılması və strukturunun şaxələndirilməsi, kənd təsərrüfatı, turizm, tranzit və yükdaşımalar sahələrində əlaqələrin inkişafı imkanlarını qeyd edib.

Nazir Fərhad Dejpəsənd son illərdə ölkələrimiz arasında əməkdaşlığın genişlənməsi üçün görülən işləri vurğulayıb, bu ilin martında Bakıda keçirilməsi planlaşdırılan Dövlət Komissiyasının 13-cü iclasının ölkələrimiz arasında iqtisadi əlaqələrin inkişafı istiqamətlərinin müzakirəsi üçün əhəmiyyətli platforma olacağını qeyd edib.

Ölkələrimiz arasında iqtisadiyyat, ticarət, maliyyə və digər sahələrdə əlaqələrin genişləndirilməsi məsələləri barədə fikir mübadiləsinin aparıldığı görüşlərdə Azərbaycanın İrandakı səfiri Bünyad Hüseynov iştirak edib.

**AZƏRTAC**

# Dövlət Komitəsində vətəndaşların növbəti qəbulu keçirilib

**Martın 5-də Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində məcburi köçkünlərin növbəti qəbulu olub. Dövlət Komitəsinin sədri Rövşən Rzayev, sədr müavinləri, aparat rəhbəri, şöbə və departament rəhbərləri vətəndaşları qəbul edib, onların müraciətlərini dinləyiblər.**



Dövlət Komitəsindən AZƏRTAC-a bildirilib ki, qəbula gəlmiş məcburi köçkünlər, əsasən mənzil-məişət şəraitinin yaxşılaşdırılması, məşğulluq, status, kommunal xidmətlər, vahid aylıq müavinətin təyin edilməsi ilə əlaqədar müraciət ediblər.

Qəbula gələnlərin diqqətinə çatdırılıb ki, məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması, onların sosial problemlərinin həlli daim Prezident İlham Əliyevin diqqət mərkəzindədir. Dövlətimizin başçısının tapşırığına əsasən, bu kateqoriyadan olan vətəndaşlarımızın mənzil-məişət şəraitinin yaxşılaşdırılması ilə yanaşı, maddi rifahının yüksəldilməsi üçün zəruri tədbirlər görülür. Bir neçə gün əvvəl vahid aylıq müavinətin məbləğinin 50 faiz artırılması ilə bağlı verilən Sərəncam bunun bariz nümunəsidir. Birinci vitse-prezident xanım Mehriban Əliyeva qəzalı və yararsız binalarda, ən ağır vəziyyətdə yaşayan məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması ilə bağlı verdiyi tapşırığın icrasını nəzarətdə saxlayır.

Vətəndaşlar fərdi qaydada qəbul edilib və hər birinin müraciəti qeydə alınıb. Müraciətlərdə qaldırılan məsələlərin araşdırılacağı və qanunvericiliyə uyğun şəkildə həll ediləcəyi bildirilib.

**AZƏRTAC**

Kənd Təsərrüfatı Nazirliyi
Açıq Tenderə dəvət edir
Tender 1 lot üzrə keçirilir:
Lot 1 - Heyvandarlıq Nümayiş Kompleksinin layihələndirilməsi

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri Üzeyir Hacıbəyli küçəsi 80, 7-ci mərtəbə, 777-ci otaq (Əlaqələndirici şəxs: Kamil Şirinov, telefon: 498-02-57) ünvanından ala bilərlər.

İştirak haqqı:
Lot 1 - 100 manat
Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi
Hesab:
AZ94CTRE00000000000002188301
VÖEN: 1700069791
Bank: Dövlət Xəzinədarlıq Agentliyi
Kodu: 210005
VÖEN: 1401555071
M/H:
AZ41NABZ01360100000000003944
S.W.İ.F.T: CTREAZ22

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. Tenderdə iştirak etmək üçün yazılı müraciət;
2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);
4. Tender təklifi dəyərinin 1%-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);
5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;
6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
8. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
9. Digər sənədlər: Lisenziyanın surəti

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 2019-04-16 saat 17:00 tarixinə qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 2019-04-29 saat 17:00-a qədər Üzeyir Hacıbəyli küçəsi 80, 7-ci mərtəbə, 777-ci otağa ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 2019-04-30 saat 17:00 tarixində Kənd Təsərrüfatı Nazirliyində, Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi 80, 7-ci mərtəbə, 722-ci otaqda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

TENDER KOMİSSİYASI.

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Sabunçu rayonundakı 2 saylı doğum evində olub





**Martın 4-də Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Bakının Sabunçu rayonunda yerləşən 2 saylı doğum evində olub. Xatırladaq ki, bu doğum evi ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 1987-ci ildə istifadəyə verilib.**

AZƏRTAC xəbər verir ki, Leyla Əliyeva doğum evindəki palataları gəzdi, dünyaya yeni göz açan körpələrin və onların analarının səhhəti ilə maraqlandı, uşaqların sağlam böyümələrini arzuladı.

Heydər Əliyev Fondu tərəfindən yeni küvəzlərlə təmin olunan tibb müəssisəsi 120 çarpayıdan ibarətdir. Doğum evində bundan əvvəl olan küvəzlər müasir standartlara cavab vermirdi.

Leyla Əliyevaya bu xüsusi aparatda saxlanılan tənəffüs və digər problemlə anadan olan uşaqların müalicəsi barədə məlumat verildi. Yeni küvəzlərdə ana və körpədə qan qrupları və rezus üzrə uyğunsuzluq xəstəliyi, tənəffüs, az çəki problemi olan, vaxtından əvvəl dünyaya gələn və intensiv terapiyaya ehtiyacı olan uşaqların müalicəsi aparılır. Hazırda 2 saylı doğum evində yeni doğulan 70-dən çox körpədən 3-ü küvəzdə saxlanılır. Həkimlər bu körpələrin vəziyyətinin sabitləşdiyini, müsbət dinamikanın müşahidə edildiyini bildirdilər.



Tibb müəssisəsində 398 işçi çalışır.

Heydər Əliyev Fondunun vitse-prezidenti doğum evinin əməkdaşları ilə şəkil çəkdirdi, onlara işlərində uğurlar arzuladı.

**AZƏRTAC**

# Bakıda "Patent hüququ Müqaviləsi"nə dair seminar keçirilir

**Martın 5-də Azərbaycan Respublikasının Hökuməti və Ümumdünya Əqli Mülkiyyət Təşkilatı (ÜƏMT) arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumunun həyata keçirilməsi üzrə Fəaliyyət Planında nəzərdə tutulan tədbirlərin icrası çərçivəsində Əqli Mülkiyyət Agentliyi və ÜƏMT-nin birgə təşkilatçılığı ilə "Patent hüququ Müqaviləsi"nə dair seminar öz işinə başlayıb. Beynəlxalq tədbir dövlətimizin başçısının müvafiq Sərəncamından irəli gəlir və orada qeyd edildiyi kimi, Patent alınması prosesini sadələşdirən "Patent hüququ Müqaviləsinə" ("Patent LawTreaty") qoşulmaq üçün müvafiq tədbirlərin görülməsi ilə əlaqədardır.**

AZƏRTAC xəbər verir ki, seminarı açan Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanov Azərbaycanın uğurlu və innovasiyalı inkişafından, yeniləşməsindən danışıb. Xatırladıb ki, fevral ayında Prezident İlham Əliyev Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin beşinci toplantısında söylədiyi nitqində Azərbaycana yatırılmış investisiyaların ümumi həcminin 250 milyard dollara yaxın olduğunu və bunun yarısının xarici investisiyalar olduğunu bildirib. Dövlətimizin başçısının qeyd etdiyi kimi, bu bizə iqtisadiyyatımızı şaxələndirməyə, islahatları uğurla həyata keçirməyə, yaxşı biznes mühiti yaratmağa imkan verib. Dünya Bankının sonuncu "Doing Business" hesabatına əsasən, Azərbaycan 25-ci yerdədir. Beləliklə, Azərbaycan möhtəşəm uğur qazanıb və biznes mühiti nöqteyi-nəzərindən 10 ən islahatçı ölkədən biridir.

Kamran İmanov qeyd edib ki, ölkəmizin uğurlu inkişafını 2019-cu ilin ilk ayının yekunları da təsdiqləyir: ümumi iqtisadi artım 3 faiz, qeyri-neft sektorunda 14 faiz təşkil edir.

Azərbaycanın bugünkü reallıqları ondan ibarətdir ki, ölkəmiz dünya ölkələri tərəfindən tanınan islahatçı-dövlətdir və bu islahatlar hər bir sahədə, o cümlədən əqli mülkiyyət (ƏM) sahəsində geniş miqyasda həyata keçirilir. 2018-ci ildə həyata keçirilən struktur, institusional və iqtisadi islahatlar nəticəsində ƏM sistemində əhəmiyyətli təşkilati və funksional dəyişikliklər baş verib. Dövlətimizin başçısının Sərəncamı ilə Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyi və ləğv edilmiş Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin Patent və Əmtəə Nişanları Mərkəzinin birləşməsi nəticəsində Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi yaradılıb.

Sənaye mülkiyyəti sahəsində ləğv edilmiş Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin səlahiyyətləri, tabeliyində olan Respublika Elmi-Texniki Kitabxana Əqli Mülkiyyət Agentliyinə verilib və onun tabeliyində Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzi və Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzi yaradılıb, yeni nizamnamələri təsdiq edilib. Nəticədə ƏM sahəsinin bütövlükdə inkişafını təmin edən, bu sahədə vahid tənzimləməni və nəzarəti həyata keçirən və fəaliyyəti əlaqələndirən, işçiləri dövlət qulluqçularına və əməyin ödənilməsində mərkəzi icra hakimiyyəti orqanlarına bərabər tutulan ixtisaslaşmış, yığcam dövlət qurumu fəaliyyətə başlayıb.

Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri vurğulayıb ki, yeni qurumun qarşısında duran vəzifələr dövlət başçısının göstərişlərinə əsasən, daha çevik, daha yığcam və daha məqsədyönlü struktur vasitəsilə sahənin idarə edilməsidir, müəllif-hüquq sahəsi ilə yanaşı, sənaye mülkiyyəti obyektlərinin idarə edilməsi və bu idarəçiliyin zamanın müasir tələblərinə uyğun təşkili, patent və əmtəə nişanlarına dair müraciət edən şəxslər üçün dürüstlüyün, açıqlığın və şəffaflığın təminidir. Bununla yanaşı, müxtəlif obyektiv və subyektiv səbəblərə görə istifadəçilərini və nüfuzunu itirmiş Respublika Elmi-Texniki Kitabxanasının fəaliyyətinin müasir tələblərə uyğun yenidən qurulması, onun elektron, rəqəmli kitabxanaya çevrilməsidir.

Bəllidir ki, innovasiyalı inkişafın başında yenilikçilik, onun mənimsənilməsi, kommersiyalaşması, bazara çıxarılması və istehlakçılara çatdırılması dayanır. Bu isə ixtiralarla bağlıdır, çünki "bəşəriyyətin tarixi elə ixtiralar tarixidir", əqli mülkiyyət tarixinin salnaməsidir. Belə şəraitdə müəlliflik hüququ ilə qorunan elmi-texniki əsərlər bilik daşıyıcıları kimi müstəsna rola malikdir, bunların sayəsində ixtiralar və digər ƏM obyektləri yaranır və qorunur. Bu səbəbdən bilik sahəsini təmsil edən müəlliflik hüququnun, sənaye mülkiyyətinin və özündə patent və standartlar fondlarını cəmləşdirən elmi-texniki kitabxananın bir qurum səviyyəsində idarə edilməsi çox uğurlu institusional islahatdır.

Tədbirdə ÜƏMT-nin patent hüququ şöbəsinin hüquqi məsələlər üzrə əməkdaşı Aida Dolotbayeva seminarın əhəmiyyətindən danışıb, Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi ilə yüksək səviyyədə əməkdaşlıq qurulduğunu deyib.

Daha sonra Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanov rəhbərlik etdiyi qurumun vəzifələrindən danışıb. Bildirib ki, Agentliyin qarşısında duran vəzifələrin yerinə yetirilməsində, əqli mülkiyyətin əhəmiyyətinin və faydasının artırılmasında əsas prinsip Azərbaycan Prezidentinin iqtisadi islahatlarının uğurla həyata keçirilməsinə xidmət etməkdir. Bununla da ƏM investisiyalarının cəlb edilməsi və innovasiyaların həyata keçirilməsində fəal aktora çevrilmək, yeni texnologiyaların kommersiyalaşdırılmasını dəstəkləmək və özlüyündə abstrakt vasitədən sosial-iqtisadi uğurların aparıcı amilləri sırasında yerini tutmaq - Əqli Mülkiyyət Agentliyinin başlıca vəzifəsidir.

Kamran İmanov qeyd edib ki, texnologiyaların indiki sıçrayış dövründə və innovasiyaların "rəqəmsal imperativ" zamanında innovativ inkişaf - tədqiqatlar nəticəsində əldə edilən biliklərin və texnologiyaların, investisiyaların və ƏM-in yaratdığı insan kapitalının ekosistemidir. Tanınmış mütəxəssislərin fikrinə görə, "gələcəkdə əqli mülkiyyətin beynəlxalq arxitekturası və formasının texnologiyalar tərəfindən getdikcə daha çox diktə ediləcəyi və onu idarə etməsi qaçılmazdır". Bununla da texnologiyaların ƏM-in mövcud landşaftına köklü təsiri və öz növbəsində əqli mülkiyyətin buna qarşı çıxmaması, əksinə, ona uyğunlaşması vurğulanmalıdır.

Patent təşkilatları zamanın çağırışlarına adekvat cavab axtarışında yeni paradiqma mövqeyindən yanaşaraq, fəaliyyətinin təhlilində özünəməxsus daxili göstəricilər çərçivəsindən çıxmalı və patent sahəsinin fəaliyyətini onun innovasiyalı proseslərə təsiri ilə ölçməlidir.

Çünki innovativ iqtisadiyyatda innovasiyalar istehsalatın əsas amili kimi əsas iqtisadi resursa - intellektual kapitala söykənir və varlığın, zənginliyin yaranma mənbəyi texnoloji, intellektual və informasiya rentasından irəli gəlir. Bu amillərə Əqli Mülkiyyət Agentliyi öz payına düşən təsiri müəyyənləşdirməlidir. Bununla əlaqədar, milli patent sistemində ilk dəfə olaraq ölkələrarası müqayisədə qabaqcıl dünya təcrübəsinin indeks və göstəriciləri, o cümlədən ixtira və patent aktivliyi, özünü təmin etməsi, asılılığı, yayılması, reallaşması və digər əmsallar son 8 illik fəaliyyət əsasında müəyyənləşdirilib və ümumi mənzərəsi açıqlanıb. Bu araşdırma nəticəsində zəif yerlər, çatışmazlıqlar aşkar edilərək, gələcək fəaliyyətin yol xəritələri hazırlanıb.

Doğrudur, 2018-ci ilin Davos İqtisadi Forumunun Rəqabətqabiliyyətlilik İndeksinə əsasən, "Təsisatlar" altindeksində "Əqli mülkiyyət hüquqlarının qorunması" göstəricisi üzrə Azərbaycan 36-cı yerdə qərarlaşıb və MDB məkanında liderdir. Lakin biz irəliyə baxmalıyıq, problemləri aradan qaldıraraq, ehtiyatlarımızı təftiş etməliyik.

Kamran İmanov sonra Əqli Mülkiyyət Agentliyinin qarşısında duran funksional vəzifələr barədə danışaraq vurğulayıb ki, Agentliyin əsas vəzifəsi, ilk növbədə, dövlət başçısının innovasiyalı inkişafla bağlı yürütdüyü iqtisadi islahatlar siyasətinə ƏM-in təsiri və innovativ inkişafa adekvat xidmət etməsi ilə bağlıdır. Bununla yanaşı, beynəlxalq miqyasda ƏM ilə bağlı yeni amillərin nəzərə alınması da vacibdir. Belə ki, ali təhsil və elm sistemində radikal transformasiya nəticəsində 3.0 (təhsil, tədqiqatlar və biliklərin kommersiyalaşması) universitetlərin yaranması, burada texnologiyaların kommersiyalaşması və transferinin ön plana çıxarılması, kiçik və orta sahibkarlığın iqtisadi rolunun və innovasiya imkanlarının artırılması, ƏM siyasətinin dəstəklənməsi, texnoloji innovasiyaların stimullaşdırılması, həmçinin ƏM-in yeni fəaliyyət konteksti ilə bağlı onun dəyişmiş rolunun nəzərə alınması, sərvətlərin yaranma mərkəzinin maddi aktivlərdən qeyri-maddi aktivlərə, intellektual kapitala yönəlməsi və investisiya axınlarının ƏM-ə istiqamətlənməsi yeni amillərdəndir.





Bunlar nəzərə alınmaqla bir sıra vacib işlər görülür. Bu sırada patent və əmtəə nişanlarına aid qanunvericilikdə islahat xarakterli dəyişikliklər və uzunmüddətli Əqli Mülkiyyət Strategiyasının hazırlanmasını, ixtiraçılara dəstək məqsədilə beynəlxalq patent qeydiyyatı PCT sisteminin təşviqi və dövlət tərəfindən xərclərin bir qisminin ödənilməsi, həmçinin ölkəmizin patent alınmasını sadələşdirən "Patent hüququ Müqaviləsi"nə (PLT) qoşulması, Texnologiyalara və İnnovasiyalara Dəstək Mərkəzinin tezliklə fəaliyyətə başlamasını qeyd etmək olar. Habelə elm və sənaye arasında bağlantı, ixtiraçılıq fəaliyyətinin keyfiyyətcə artması və tətbiqi xarakter daşıması üçün universitetlərdə, elmi-tədqiqat institutlarında və KOS subyektlərində İP ofislərin yaradılması, mövcud ofislərin isə tezliklə texnologiyaların kommersiyalaşdırılması və transferi ofislərinə (TKTM) çevrilməsini qeyd etmək olar. Bununla yanaşı, Texnologiyaların Kommersiyalaşdırılması və Texnologiya və İnnovasiyalara Dəstək mərkəzlərinin, o cümlədən Əqli Mülkiyyət Agentliyinin nəzdində yaradılması da görülən işlərdəndir.

Mühüm işlər sırasında şəffaflığı təmin etmək, patent, əmtəə nişanlarının sifarişçiləri və ekspertiza və digər xidmət göstərənlərlə kontaktsız münasibət qurmaq məqsədilə ASAN tipli "Patentlərə, Əmtəə Nişanlarına Açıq Hədəf" "PƏNAH" rəqəmli informasiya sisteminin yaradılması işlərinə başlanılıb.

Sadalanan işlər artıq həyata keçirilir, yaradılan strukturların biznes-layihələri hazırlanır, lazımi tədbirlər görülür.

Kamran İmanov daha sonra milli patent qanunvericiliyinin bir neçə dəyişikliyi üzərində dayanıb və qeyd edib ki, müəlliflik hüququnda müəlliflərin və cəmiyyətin maraqları arasında "qızıl orta" olduğu kimi, patent hüququnda da iddiaçılar və cəmiyyətin maraqları arasında tarazlıq təmin edilməlidir. Bunun nəticəsi olaraq, müəllif-hüquq strukturları və ya patent təşkilatları müəyyən hakim funksiyaları daşıyırlar.

Müəlliflik hüququndan söhbət getdikdə, struktur bu növ funksiyaları yerinə yetirməkdə çətinlik görmür. Çünki açıqlanmış əsərlərə avtomatik qorunma, ictimaiyyətə həmin əsərlərlə tanış olmaq imkanı verilir və müəllif-hüquq strukturunda əsərlərin qeydiyyatı könüllüdür.

Patent hüququna gəldikdə - patent təşkilatı tərəfindən hakim funksiyalarının yerinə yetirilməsi mürəkkəbləşir. Məsələ ondadır ki, hüquqi qorunma yalnız ekspertizanın müsbət qərarı verildikdən, patentin qeydə alınmasından, yəni zəruri qeydiyyatdan keçdikdən sonra başlana bilər, özü də ictimaiyyət patentin verilmə prosedurlarında bilavasitə iştirak etmədən. Beləliklə, iddiaçıların və ictimaiyyətin maraqları nəzərə alınmaqla, yoxlanma qeydiyyat sistemində patent təşkilatı hakim funksiyaları ilə yanaşı, müəyyən mənada cəmiyyətin maraqlarına da təmsilçilik edir və bu səbəbdən istər-istəməz patentlərin verilməsi istiqamətinə deyil, verilməməsi istiqamətinə daha çox diqqət yetirir.

Bunu Avropa Patent Təşkilatı, Avrasiya Patent Təşkilatının təsdiq etdiyi təcrübə də göstərir. Belə ki, milli patent təşkilatı getdikcə daha çox öz müştərilərinə xidmət göstərən struktur kimi çıxış etməli və buna əsaslanaraq, xidmətlərin göstərilməsini ləngidən bürokratik əngəllərin götürülməsi və formallıqlar prosedurlarının azalması istiqamətində çalışmalıdır, ekspertiza işlərini tezləşdirməlidir, güzəştlər sistemini, vergi preferensiyalarını tətbiq etməlidir. Təbii ki, bu səpkidə PLT Müqaviləsinin əhəmiyyəti danılmazdır və ən qısa müddətdə PLT üzvləri sırasına daxil olmağa vacib məsələ kimi baxılır. Dövlət başçısının müvafiq Sərəncamında prioritet istiqamətlərdən biri kimi PLT-yə daxil olmaq məsələsi qoyulub və bununla bağlı tədbirlərin keçirilməsi nəzərdə tutulur.

Aydın olmayan səbəblərdən, keçmişdə PLT-yə daxilolma prosesi yubanıb. Bəlkə də bunun səbəbinin biri milli patent qanunvericiliyinin köhnəlməsidir və bu səbəbdən patent qanunvericiliyinin müasir tələblərə uyğun olaraq yenilənməsi işi hazırda sürətlə gedir. İkincisi, patentlərlə bağlı cəmiyyətin məlumatlanmasına, informasiyaların çatdırılmasına daha çox diqqət yetirilməlidir. Məlumatlanma, informasiyaların çatdırılması istər çap məhsulları, Patent təşkilatının bülleteni, istərsə də cəmiyyətə iddia materiallarının, sənədlərinin tanış olmaq təqdimatı ilə həyata keçirilməlidir. Lakin bu zaman bir vacib şərt yerinə yetirilməlidir - xüsusən patent və müəlliflik hüququ arasındakı əlaqə nəzərə alınmalıdır.

Çox zaman tətbiqi incəsənət əsərlərinin və sənaye nümunələrinin, inteqral sxem topologiyalarının və kartoqrafik əsərlərin hüquqi qorunmasındakı əlaqələr, əmtəə nişanlarının müəlliflik hüququ ilə qorunmasının mümkünlüyü, əsərlərin adlarının əmtəə nişanları sırasında sərbəst istifadəsinə məhdudiyyətlər haqqında əlaqələrdən söhbət açılır. Lakin reallıqda patent və müəlliflik hüququ arasındakı əlaqə daha dərindir. Məsələ burasındadır ki, patentə iddia sənədləri müəllif-hüquq obyektləridir.

Həqiqətən, müəllif-hüquq obyekti 3 şərtin yerinə yetirilməsi ilə ərsəyə gəlir. Bu sıraya əsərin obyektiv formada təqdim olunması, əsərin yaradıcı xarakter daşıması və yaradılan əsərdə digər əsərlərdən istifadə edilməsinin qanuniliyinə əməl olunması daxildir.

Birinci şərt daim yerinə yetirilir, çünki iddia (sifariş) patent təşkilatına kağız daşıyıcıda və ya elektron formada təqdim edilir və bu da obyektiv forma deməkdir. İkinci şərt də yerinə yetirilir, çünki heç kim iddia sənədinin tərtib edilməsində yaradıcılıq fəaliyyətinin olmaması haqqında iddia irəli sürə bilməz, əslində ixtiraçı ikili yaradıcıdır: o ixtiranı yaratmaqla yanaşı, onun mahiyyətini iddia sənədlərində elmi-texniki əsər şəklində təqdim edir. Nəhayət, üçüncü şərt yalnız törəmə və tərtibat əsərlərinə aiddir, lakin müstəqil əsərlərə, o cümlədən qorunma sənədlərinin alınması üçün patent iddia sənədlərinə aidiyyəti yoxdur.

Beləliklə, iddia sənədləri əsərlərin hüquqi qorunması şərtlərinə tamamilə uyğundur və bu səbəbdən iddia materialları müəllif-hüquq obyektləri sırasına daxildir. Bu hüquqi qorunma Bern Konvensiyasına uyğun olaraq, əsərin yarandığı andan əmələ gəlir və heç bir formallıqla (qeydiyyat, deponə, çap, açıqlama və s.) əlaqəli deyil, yəni avtomatik qorunma prinsipi əsasında meydana gəlir. Deməli, ixtiraçının iddia sənədlərinə mövcud olan müəlliflik hüququ iddia sənədinin hazırlanması anından başlayaraq, sənədin Patent təşkilatına təqdim edilməsi anına qədər yaranmış olur və patentin alınmasına aid müvafiq formaların doldurulması bir tərəfdən əsərin obyektiv formada mövcudluğunu, digər tərəfdən onun müəyyən mənada "dərc edilməsini" təsdiqləyir, özü də bu, gələcəkdə Patent təşkilatı tərəfindən həmin ixtira haqqındakı məlumatların rəsmi açıqlanmasından asılı olmayaraq baş verir. Yaranmış şəraitdə müəllif-hüquq qanunvericiliyinin normalarına uyğun olaraq, əsərdən hər növ istifadə yalnız müəllifin (hüquq sahibinin) yazılı icazəsi ilə həyata keçirilə bilər. Lakin bunlara əməl edilmədən iddia materialları dərc olunur, üstəlik surətləri (nüsxələri) çıxarılaraq qeyri-müəyyən şəxslər dairəsinə yollanılır.

Bir sözlə, ixtiraçı və patent təşkilatı arasındakı lisenziya (icazə) sazişi bağlanmadan, hətta iddiaçının doldurduğu formalarda da hüquqi nəticələr haqqında xəbərdarlıq edilmədən müəlliflik hüququ ilə qorunan iddia sənədləri dərc edilir. Beynəlxalq hüquqi aktlara əsasən, istisnalara və məhdudiyyətlərə unifikasiya çərçivəsində "Üçpilləli test" işlənilir (Bern, Roma Konvensiyaları, TRİPS Sazişi, ÜƏMT-nin internet müqavilələri, Avropa Direktivi) və onun mahiyyəti aşağıdakılara əsaslanır:

-bütün məhdudiyyətlər "numerus clauses" prinsipinə görə qurulur, yəni hüququn özünün hamı tərəfindən tanınan ümumi xarakteri nəzərə alınmalıdır, məhdudiyyətlər isə yalnız xüsusi hallara aid edilir;

-məhdudiyyətlər əsərlərin normal istifadəsinə ziyan vurmur;

-məhdudiyyətlər müəllifin qanuni maraqlarını əsassız məhdudlaşdırmır.

Göründüyü kimi, "Üçpilləli test" qaydaları iddia materiallarından sərbəst istifadəyə imkan vermir, çünki bu vəziyyətdə müəllifin qanuni maraqlarına əsassız zərər gətirilir. Əslində ixtiralar haqqında icazəsiz məlumatların yayılması ixtiraçılara və dövlətə birbaşa və çox zaman nəzərəçarpan dərəcədə ziyan vurur, çünki bu səbəbdən ən yaxşı ixtiralar haqqında məlumatlar digər ölkələrdə sərbəst istifadə olunmaqdadır.

Vurğulanıb ki, ixtiraçının patentlə bağlı iddia sənədlərinə aid müəlliflik hüququnun pozulması probleminin həlli iki yolla aradan qaldırıla bilər:

- iddia sənədlərinin doldurulan formalarında iddiaçının həmin sənədlərin dərci ilə bağlı hüquqi nəticələrlə tanış olması və razılaşmasına dair göstəriş vasitəsilə;

- ABŞ-ın patent qanunvericiliyinə uyğun olaraq (əksər ölkələrdən fərqli), patent verilənə qədər iddia materiallarının dərc edilməməsi yolu ilə.

Bu, problemin nisbətən həll edilməsi üçün iddia sənədlərinin təqdim olunması ilə bağlı ABŞ-ın patent qanunvericiliyinin iddiaçıya müvəqqəti (ilkin) sifarişin verilməsi imkanıdır. Bu imkanı müəyyən mənada adi (ənənəvi) iddiaya münasibətdə prioritetin əldə edilməsi məqsədilə Patent təşkilatında ixtiranın təsvirinin deponlaşması kimi müəyyən etmək olar. Müvəqqəti (ilkin) sifariş əsasında iddiaçı 12 ay ərzində növbəti adi (ənənəvi) iddianı (nonprovisional) təqdim etmədiyi halda patent ala bilməz. İlkin iddia çox sadələşmiş formada istənilən dildə, özü də ixtiranın düsturunun (formulunun) göstərilməməsi ilə təqdim edilə bilər və bu iddianın təqdim edilmə qiyməti əsas iddianın qiymətindən qat-qat ucuzdur. Həmin qaydalar mexanizminin əsas üstünlüyü iddiaçının 12 ay ərzində daha dürüst iddianın hazırlanmasında və bununla yanaşı, ixtiranın mahiyyətini açıqlamadan bazar marağının ixtiraya münasibətdə necə olduğunu müəyyən etməkdən ibarətdir.

Üçüncüsü, digər bir problem - patentin qorunma müddəti və müəllif-hüquq qorunması ilə paralellərə aiddir. Bəllidir ki, istər müəllif-hüquq qanunvericiliyində, istərsə də patent qanunlarında şəxsi, qeyri-əmlak hüquqlarının qorunması sonsuz olduğu halda, əmlak hüquqlarının qorunması müddətlidir. İxtiralara aid əmlak hüquqlarının qorunmasının müddəti dünyada vahidləşmiş yanaşmaya əsasən, minimal olaraq iddia sənədinin verilməsi anından (20 il) və uzadılmasına (5 il) imkan verməklə qəbul edilir.

Məlumdur ki, iddia sənədinin verildiyi andan onun dərc edildiyi ana qədər heç bir qorunma nəzərdə tutulmur, iddia ərizəsinin dərc edildiyi andan verilən patent haqqında məlumatın dərc edildiyi ana qədər ixtiraya müvəqqəti qorunma təqdim olunur. Lakin qanunvericilik bu qorunma altında nəyin başa düşülməsinə aydınlıq gətirmir. Amma bizə bəllidir ki, qanunvericiliyin tələbinə əsasən, bu müvəqqəti qorunma müddəti zamanı həmin iddia olunan ixtiradan istifadəyə görə üçüncü tərəflər patent sahibinə ödəniş (kompensasiya) etmək məcburiyyətindədirlər. Lakin sözü gedən ödəniş heç də patent sahibinin əmlak hüququ kimi göstərilmir və bu növ müvəqqəti qorunma müəyyən suallar yaradır.

Belə ki, əgər həmin istifadəni hüquq sahibi özü həyata keçirirsə, onda bu absurda çevrilir (öz-özünə ödəmə) və əgər bu istifadə digər şəxslər tərəfindən həyata keçirilibsə, onda gələcəkdə ixtiraya verilən patent yeni deyil.

Bununla yanaşı, "müvəqqəti qorunma" "öncə istifadə" hüququna zidd çıxır, yəni hər hansı fiziki və ya hüquqi şəxsin istifadə həcminin artırılması şərti ilə sonrakı ödənişsiz istifadəsi ilə ziddiyyətlər olur (əgər digər şəxs analoji ixtiraya iddia ərizəsi vermiş və ona patent də almış olarkən).

Nəhayət, "müvəqqəti qorunma" patent alındıqdan sonra qüvvəyə minir, yəni ixtiranın keçmiş istifadələrinə aid edilir. Lakin əksər ölkələrdə Konstitusiya prinsipinə əsasən, "qanunun geriyə qüvvəsi yoxdur" norması işlənilir (vətəndaşların məsuliyyətini yumşaltma və ləğvetmə halları istisna olmaqla) və belə "retroaktivlik" halı patent qanunvericiliyinin digər normaları ilə ziddiyyət təşkil etdiyi halda Konstitusiya prinsiplərinə də zidd çıxır.

Göründüyü kimi, "müvəqqəti qorunma" əslində əmlak hüququnun retroaktiv genişlənməsi deməkdir və bu genişlənmənin zaman kəsiyi patent təşkilatına (PT) iddia sənədləri verilən andan verilən patent haqqında məlumatların dərc edildiyi ana qədər uzanır.

Vurğulanıb ki, əgər həmin genişlənmə iddiaçının Konstitusiyaya əsasən vəziyyətini pisləşdirmirsə, digər şəxslərin bilməməsi ucbatından yaxud qəsdən olmaması səbəbindən öncə qorunmayan ixtiradan istifadə vəziyyətini ağırlaşdırır və bu şəxslər patent qanunvericiliyinin de-fakto işləndiyi normasına görə qanun pozucuları sırasına daxil edilirlər.

Retroaktivlik prinsipi Bern Konvensiyasında əks olunaraq, TRİPS Sazişində, ÜƏMT-nin "Müəlliflik hüququna dair", "İfalar və fonoqramlara dair" müqavilələrində (internet müqavilələri) də təsdiqini tapıb və mahiyyəti ondan ibarətdir ki, Bern Konvensiyasına qoşulan, yəni Bern İttifaqına üzv olan ölkə həmin İttifaqın digər ölkələrinin əsərlərini qoşulma anından yox, üstəlik bu ölkələrdə qorunma müddəti bitməyən əsərləri qoruyur.

Kamran İmanov diqqətə çatdırıb ki, beynəlxalq və milli müəllif-hüquq qanunvericiliyində açıq, əyani formada əksini tapan retroaktivlik prinsipi aşkar formada sənaye mülkiyyəti üzrə nə beynəlxalq, nə də milli qanunvericilikdə öz əksini tapmayıb, lakin bu o demək deyil ki, onun mövcudluğu şübhə altındadır.

"Müvəqqəti qorunma" norması ilə yaranan ziddiyyətləri aradan qaldırmaq məqsədilə istər beynəlxalq, istərsə də milli patent qanunvericiliyində aşkar formada retroaktivlik prinsipi öz əksini tapmalıdır, onun iddia sənədinin PT-yə verilməsi anından patentin verilməsi haqqında məlumatların dərc edilməsi anına qədər zaman kəsiyinə şamil edilməsi və "öncə istifadə" hüququ qüvvədə olduğu halda istisna olması göstərilməlidir.

Dördüncüsü, innovasiyalı inkişafda mühüm rola malik olan patent qanunvericiliyinin ixtiralara aid yeni üsulunun qorunması və həmin üsulla alınan məhsula şamil edilməsi üzərində dayanmağın məqsədəuyğunluğu barədə danışan Kamran İmanov vurğulayıb ki, "üsul" anlayışı prosesi, daha doğrusu istehsalat prosesini nəzərdə tutur və TRİPS Sazişinin 28 (1) maddəsinə əsasən, milli qanunvericiliyimizdə tərcüməsi belə verilir: "patentin obyekti üsul olduqda patent sahibinin razılığı olmadan üçüncü şəxs tərəfindən bu üsulun tətbiqi (daha dəqiq "istifadəsi") ilə bağlı hərəkətlərin, habelə bilavasitə bu üsulla alınan məhsuldan istifadənin, məhsulun satışının, satış üçün təklif olunmasının və ya bu məqsədlər üçün idxalının qarşısının alınması"na müstəsna hüququ vardır.

Bununla yanaşı, "məhsulun alınma üsuluna patentlə verilmiş hüquq bilavasitə bu üsulla alınan digər məhsula da şamil edilir və əksini sübut edən hal olmadıqda yeni məhsul patentləşmiş üsulla alınmış hesab edilir".

Göründüyü kimi, məhsulun alınması üsuluna verilən patentin müstəsna hüququ bu üsulla alınan məhsulun özünə də şamil edilir.

İstehsalat üsulunun patent qorunmasının bu üsulla alınan məhsulun üzərinə keçirilməsi dəqiqləşdirmə tələb edir. Bir tərəfdən istehsalatın yeni üsulun patent qorunmasının ənənəvi, yayılan məhsula münasibətdə genişlənməsi qanuni deyil, çünki digərlərinin hüquq və maraqlarını pozur. Digər tərəfdən isə yeni üsulla istehsal olunan yeni məhsula münasibətdə belə qorunma lüzumsuzdur və buna ehtiyac da yoxdur, çünki məhsul elə ona görə yenidir ki, yeni qorunan üsul vasitəsilə alınır.

Kamran İmanov Agentliyin praktiki fəaliyyəti haqqında məlumat verərək qeyd edib ki, qarşıda qoyulan vəzifələri dərk edərək, Əqli Mülkiyyət Agentliyi Müəllif Hüquqları Agentliyi kimi fəaliyyət göstərdiyi dövrdən başlayaraq, indiki yeni imkanlarla davam edir. Belə ki, Müəllif Hüquqları Agentliyi, Təhsil Nazirliyi və Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT) birgə hazırladıqları "Universitet və elmi-tədqiqat institutlarında əqli mülkiyyət siyasəti üçün milli Layihə"nin icrası ilə bağlı hələ 2017-ci ildə Agentliyin iştirakı ilə Təhsil Nazirliyi və ÜƏMT arasında birgə Bəyannamə imzalanıb və bu istiqamətdə bir neçə beynəlxalq konfrans və seminar keçirilib.

Layihə çərçivəsində bir sıra metodik sənədlər və broşürlər, kommersiyalaşma xəritələri hazırlanaraq elmi təşkilatlara paylanıb.

Həmçinin ÜƏMT-nin Baş direktoru Frensis Qarrinin 2018-ci il iyunun 4-6-da Azərbaycana rəsmi səfər proqramı çərçivəsində "Bilik və innovasiya iqtisadiyyatına əqli mülkiyyətin dəstəyi" mövzusunda beynəlxalq konfrans və "Qeyri-maddi aktivlər və qlobal dəyərlər zənciri: İqtisadiyyat innovasiyaların faydalarından necə yararlanır?" mövzusunda regional seminar keçirilib, universitet və elmi-tədqiqat institutlarında yaradılmış startapların nailiyyətlərini nümayiş etdirən sərgi təşkil edilib. Bu sərgidə 21 startap-layihə nümayiş etdirilib, onların 16-sı yerli universitetləri, 2-si özəl şirkəti, 3-ü AMEA-nı (Yüksək Texnologiyalar Parkı) təmsil edib.

2018-ci ilin sentyabr ayında ÜƏMT-nin Baş Assambleyasında Azərbaycanın ənənəvi mədəni irsini təmsil edən, UNESCO tərəfindən Dünya İrsi Siyahısına daxil edilən nümunələrə əsaslanan müasir coğrafi göstəriciləri nümayiş olunub.

2018-ci il dekabrın 18-də ÜƏMT-nin Cenevrədəki mənzil-qərargahında Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə Əqli Mülkiyyət Agentliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, ÜƏMT və Beynəlxalq Telekommunikasiya İttifaqının birgə təşkilatçılığı ilə "Azərbaycanda əqli mülkiyyətin inkişafı və onun regiona təsiri: innovativ və yüksək texnologiyalar üzrə startapların təqdimatı" mövzusunda beynəlxalq konfrans və Azərbaycanın innovativ və yüksək texnologiyalı startaplarına həsr olunan sərginin təşkili də vacib tədbirlərdəndir. Bu beynəlxalq tədbirin xüsusi əhəmiyyəti yeniləşən islahatçı ölkə - Azərbaycanın müasir simasını dünyaya, beynəlxalq ekspert cəmiyyətinə nümayiş etdirməsində idi.

"Onu da xüsusi olaraq qeyd etməliyəm ki, dövlət başçısının vergi islahatları çərçivəsində etdiyi dəyişikliklər mikro və ya kiçik sahibkarlıq subyektləri üçün yeni üfüqlər açır. Belə ki, mikro və ya kiçik sahibkarlıq subyekti olan fiziki şəxslər "startap" şəhadətnaməsini aldıqları tarixdən innovasiya fəaliyyətindən əldə etdikləri gəlirdən 3 il müddətinə gəlir vergisindən, hüquqi şəxs kimi fəaliyyət göstərən həmin subyektlər isə 3 il müddətinə əldə etdikləri mənfəət vergisindən azad olunurlar.

Prezident İlham Əliyevin Davos İqtisadi Forumunda vurğuladığı kimi, "gələcəyimiz - innovasiyalar, texnologiyalar, yaxşı idarəetmə, şəffaflıq və sahibkarlara dövlət dəstəyindədir". Əqli Mülkiyyət Agentliyi isə bir dövlət qurumu kimi bu göstərişi layiqincə yerinə yetirməlidir", - deyə Kamran İmanov fikrini yekunlaşdırıb.

Seminarda "Azərbaycan Respublikasında əqli mülkiyyət sahəsində həyata keçirilən islahatlar və Agentliyin qarşısında duran vəzifələr", "Patent hüququ Müqaviləsi"nin icmalı", "Patent qanunvericiliyinin təkmilləşdirilməsi" və digər mövzularda məruzələr dinlənilib.

"Patent hüququ Müqaviləsi"nə dair seminar martın 6-da başa çatacaq.

**AZƏRTAC**

*Əbülfəs QARAYEV:*

# İslahatlar bundan sonra da davam etdiriləcək



**Martın 5-də Mirzə Fətəli Axundzadə adına Milli Kitabxanada mədəniyyət naziri Əbülfəs Qarayev mətbuat konfransı keçirib.**

AZƏRTAC xəbər verir ki, mətbuat konfransı Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın martın 1-də mədəniyyət və incəsənət xadimlərinin bir qrupu ilə görüşdə müzakirə olunan məsələlərə həsr olunub.

Tədbirdə Əbülfəs Qarayev son illər mədəniyyət sahəsində görülən işlər, aparılan islahatlar barədə geniş məlumat verib.

Mədəniyyət Nazirliyində həyata keçirilən islahatların uğurla davam etdirildiyini deyən nazir bildirib ki, Prezident İlham Əliyevin 2016-cı il martın 29-da imzaladığı Sərəncama uyğun olaraq 2017-ci ildən nazirliyin Bakı şəhəri üzrə baş idarəsi və 15 regional mədəniyyət idarəsi yaradılıb. Ölkə başçısının "Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2018-ci il iyunun 6-da imzaladığı Fərmana uyğun olaraq Mədəniyyət Nazirliyinin strukturu yenidən formalaşdırılıb.

Əbülfəs Qarayev Prezident İlham Əliyevin bu il yanvarın 15-də imzaladığı "Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin strukturunun və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Fərmanın ölkəmizdə mədəniyyət sahəsinin müasir tələblərə uyğun inkişafının təmin edilməsi baxımından müstəsna əhəmiyyətini qeyd edib. Vurğulayıb ki, Fərman mədəniyyət sahəsində müasir sistemin qurulmasını, mədəni xidmətlərin səviyyəsinin yüksəldilməsini, mədəniyyət müəssisələrinin fəaliyyətinin optimallaşdırılmasını nəzərdə tutur.

Nazir diqqətə çatdırıb ki, həyata keçirilən islahatlar zamanı beynəlxalq təcrübədən istifadə olunması istiqamətində də zəruri addımlar atılacaq. Biz xarici təcrübənin öyrənilməsi və ölkəmizdə tətbiq olunması istiqamətində Avropa İttifaqının "Tvinninq" layihəsini həyata keçirmişik. Qarşımızda duran əsas məsələlərdən biri də hazırda qabaqcıl beynəlxalq təcrübəni öyrənib ölkəmizdə tətbiqini davam etdirməkdir.

Qeyd edib ki, dövlət başçısı mədəniyyət sahəsində islahatların həyata keçirilməsini sistemli şəkildə istəyir. Son iki ildə kifayət qədər eksperimental da olsa, vacib işlərin görülməsinə nail olunub. Aparılacaq islahatlarda insan faktoru diqqətdə saxlanılacaq. İslahatların məqsədi kiminsə işdən çıxarılması, iş yerlərinin sayının azaldılması ilə bağlı deyil. Kim bu düşüncədədirsə, yanlış düşünür. İnsanların öz işlərini itirməsi, kimlərinsə işdən azad olunmasından söhbət gedə bilməz.

Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın martın 1-də mədəniyyət və incəsənət xadimlərinin bir qrupu ilə görüşünə toxunan Əbülfəs Qarayev bildirib ki, bu görüşlər cəmiyyətdə böyük əks-səda doğurub. Görüşdə mədəniyyət və incəsənətimizin müxtəlif sahələrinin inkişafı ilə bağlı fikirlər səsləndirilib. Qaldırılan məsələlərə dövlət başçısı tərəfindən dəstək ifadə olunub, müvafiq tapşırıqlar verilib. Prezident İlham Əliyevin son günlər "Azərbaycan teatrlarının inkişafı ilə bağlı əlavə tədbirlər haqqında", "Azərbaycan kinematoqrafiyasının inkişafı ilə bağlı bəzi tədbirlər haqqında" imzaladığı sərəncamlar mədəniyyət sahəsində göstərilən diqqətin bariz nümunəsidir.

Ə.Qarayev qeyd edib ki, islahatlar bundan sonra da davam etdiriləcək.

Görüşdə səslənən təkliflərdən biri də Cəlil Məmmədquluzadə, hacı Zeynalabdin Tağıyev, Sadıq Dadaşov və Mikayıl Hüseynovun xatirələrinin əbədiləşdirilməsi məqsədi ilə heykəllərinin ucaldılması idi. Hazırda bu məsələnin həllinin tapılması müzakirə edilir. Abidələri hazırlayacaq heykəltəraşlar müsabiqə yolu ilə seçiləcək. Bu yaxınlarda ilkin layihə üçün müsabiqə elan ediləcək. Həm memarlar, həm də heykəllərin hansı ərazilərdə ucaldılması ilə bağlı yekun qərar veriləcək. Bundan sonra ictimaiyyətə açıqlama verə biləcəyik.

Sonra nazir jurnalistləri maraqlandıran sualları cavablandırıb.

AZƏRTAC

# Dövlət Miqrasiya Xidməti "Miqrasiya könüllüsü" layihəsinə start verib

**Xidmətin İctimaiyyətlə Əlaqədar İdarəsindən aldığımız məlumata görə, Bakı Biznes Mərkəzində "Miqrasiya könüllüsü" layihəsinin təqdimat mərasimi keçirilib. Tədbir Azərbaycan Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.**



200-ə yaxın gəncin iştirak etdiyi tədbirdə çıxış edən Dövlət Miqrasiya Xidmətinin rəisi Vüsal Hüseynov miqrasiya könüllülərini səmimi salamlayaraq ölkəmizdə uğurla həyata keçirilən dövlət gənclər siyasətindən, onların inkişafı üçün yaradılan şəraitdən bəhs edib. Ölkə Prezidentinin daim diqqətində olan bu sahədə görülən tədbirlərin başlıca amalı milli-mənəvi dəyərlərə söykənən, Vətəninə, xalqına bağlı olan müasir düşüncəli gənc nəslin formalaşdırılması və bu gəncliyin potensialından dövlətin inkişafı naminə düzgün istifadə edilməsidir.

Qeyd edib ki, layihənin əsas məqsədi gənclərə yeni biliklər və təcrübə əldə etmək, şəxsi inkişaflarını yeni imkanlarla təmin etmək, Xidmətin fəaliyyətinə cəlb etməklə, onları bu sahə ilə daha yaxından tanış etmək imkanı yaratmaqdır. "Miqrasiya Könüllüsü-Sən fərqlisən!" şüarı ilə fəaliyyətə başlayan layihənin ən üstün cəhəti gələcəkdə həmin gənclərin təkcə könüllü kimi yox, həm də layihələrdə idarəedici liderləri kimi formalaşmasına dəstək verməkdir.

Xidmət rəisi bildirib ki, gənclər Dövlət Miqrasiya Xidmətinin Miqrasiya Könüllüsü komandasının üzvü olaraq təcrübə əldə edəcək, əcnəbi vətəndaşlarla sıx ünsiyyətdə olacaq, miqrasiya proseslərini yaxından izləyəcək və iştirak edəcək, gələcək karyera üçün Azərbaycanda fəaliyyət göstərən xarici şirkətlərdə təcrübə toplayacaq, beynəlxalq tədbirlərdə iştirak etmək, eləcə də beynəlxalq təşkilatların fəaliyyəti ilə tanış olmaq və bu prosesdə iştirak imkanı qazanacaqlar.

Sonra Xidmətin əsas fəaliyyət istiqamətləri haqqında məlumat verilib, "Miqrasiya Könüllüsü-Sən fərqlisən!" layihəsinin təqdimatı olub.

Həmçinin, layihə çərçivəsində miqrasiya könüllülərinin Facebook səhifəsi də istifadəyə verilib.

Tədbirin sonunda gənclərin çoxsaylı sualları cavablandırılıb və xatirə şəkilləri çəkilibdir.

**Nurəngiz ADİLQIZI,**
**"Respublika".**

# Azərbaycan multikulturalizmi bütün dünyaya nümunədir

**Azərbaycan multikulturalizmi bütün dünyaya nümunədir. Ölkəmizdə bütün dinlərin və millətlərin nümayəndələri əsrlər boyu heç bir ayrı-seçkiliyə məruz qalmadan birlikdə yaşayıblar və bu gün də yaşamaqdadırlar.**

AZƏRTAC xəbər verir ki, bu fikir Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri şeyxülislam Allahşükür Paşazadə ilə ABŞ Etnik Anlaşma Fondunun prezidenti Mark Şnayerin rəhbərlik etdiyi nümayəndə heyətinin görüşündə səsləndirilib.

QMİ sədri bildirib ki, Azərbaycan ənənəvi multikultural və tolerant dəyərlərə malik ölkədir. Tarixən müxtəlif xalqlara və dinlərə mənsub insanlar ölkəmizdə qarşılıqlı hörmət və əmin-amanlıq şəraitində birgə yaşayıblar. Azərbaycan dünyəvi dövlət olmasına baxmayaraq, dini etiqadından asılı olmayaraq, bütün vətəndaşlara dövlət tərəfindən diqqət və qayğı göstərilir. Dini icmaların fəaliyyətinin yaxşılaşdırılması, dini maarifçilik işinin genişləndirilməsi üçün hər il dövlət tərəfindən maliyyə yardımı ayrılır.

Multikulturalizmin Azərbaycan modelinin bütün dünyaya örnək olduğunu deyən Mark Şnayer bu modelin beynəlxalq aləmdə daha çox tanıdılmasının vacibliyini bildirib. Əlavə edib ki, dünyanın heç bir ölkəsində Azərbaycandakı qədər dini dözümlülük yoxdur. Bu, Azərbaycan xalqının humanizm, qardaşlıq prinsipləri ilə yaşadığını bir daha sübut edir.

Digər çıxışlarda da Azərbaycanın bütün dünyada sülh və əmin-amanlığa çağırış edən dövlət kimi tanındığı xüsusi vurğulanıb.

AZƏRTAC

# Martın sonunadək Azərbaycan Kənd Qadınları Assosiasiyasına 40 Qadın İnkişaf Qrupu üzv olacaq

*Azərbaycan Kənd Qadınları Assosiasiyasının təqdimat mərasimi keçirilib*





**Kəndlərdə aqrobizneslə məşğul olan fermer qadınlar Azərbaycan Kənd Qadınları Assosiasiyasında (AKQA) birləşiblər. Ədliyyə Nazirliyində qeydiyyata alınmış Assosiasiyanın martın 5-də təqdimat mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə 350 qadın fermerlə yanaşı, dövlət qurumlarının, beynəlxalq təşkilatların nümayəndələri də iştirak ediblər.

Kənd təsərrüfatı naziri İnam Kərimov qadınları qarşıdan gələn 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə təbrik edərək, onlara uğurlar arzulayıb.

Ölkəmizdə kənd təsərrüfatına göstərilən diqqət və qayğıdan, fermerlərə yaradılan əlverişli şəraitdən danışan nazir qadınlara müraciətlə deyib: "Aqrar sahənin inkişafı, kənd əhalisinin rifah halının yaxşılaşdırılması üçün atılan hər bir addımda Kənd Təsərrüfatı Nazirliyinin dəstəyinə əmin ola bilərsiniz".

Qeyd olunub ki, Kənd Qadınları Assosiasiyası ölkədə Qadın İnkişaf Qruplarının milli şəbəkəsi kimi fəaliyyət göstərəcək. Təşkilatlanma hazırda fəaliyyət göstərən qadın qruplarını gücləndirəcək və yeni qrupların yaradılmasına xidmət edəcək. Təşkilatın biznes inkubatorlara dəstək verməsi və rəsmi maliyyə kanallarına çıxışı təmin etməsi də gözlənilir.

"Qadın İnkişaf Qrupları Azərbaycan Kənd Qadınları Assosiasiyası vasitəsilə regional və ölkə səviyyəsində şəbəkələşəcək. Bu, onlara öz bizneslərinin həcmini və miqyasını genişləndirməyə imkan verir. AKQA həm də onlara resurslar tapmaqda və öz məhsullarını satmaqda kömək edəcək. 2019-cu ilin mart ayının sonuna kimi Azərbaycan Kənd Qadınları Assosiasiyasına 500 nəfər kənd qadınını özündə birləşdirən 40 Qadın İnkişaf Qrupunun üzv olması gözlənilir", - deyə Aqrar Kredit və İnkişaf Agentliyinin sədri Mirzə Əliyev bildirib.

Assosiasiyanın özəyi olan Qadın İnkişaf Qrupları 2018-ci ilin martından Kənd Təsərrüfatı Nazirliyi ilə Dünya Bankının birgə həyata keçirdiyi İkinci Kənd İnvestisiya Layihəsi çərçivəsində yaradılmağa başlanıb. Qadınların iqtisadi səlahiyyətləndirilməsi üzrə bu innovativ modeli Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi Dünya Bankı ilə tərəfdaşlıq çərçivəsində həyata keçirir. İndiyədək 361 qadını özündə birləşdirən 30 Qadın İnkişaf Qrupu yaradılıb.

"Qadın İnkişaf Qrupları 10-20 qadından ibarətdir. Bu qruplara maliyyə savadlılığı, biznes və həyat bacarıqları üzrə təlimlər verilir. Bizim dəstəyimizlə İcma Biznes Təbliğatçıları və Kənd Biznes Mütəxəssislərindən təşkil olunmuş dörd biznes inkubatoru yaradılıb və onlar sahədə marketinq araşdırması, uçot aparılması və maliyyə təhlili kimi biznes inkubasiya və inkişaf xidmətləri təklif edirlər. Kəndlərdə qadın qruplarına dəstək göstərmək məqsədilə təlim almış və yüksək biznes bacarıqlarına malik gənclərdən ibarət kadr heyəti yaradılıb",- deyə AKİA sədri qeyd edib.

"Bizim vəzifəmiz, ilk növbədə, kənd təsərrüfatını inkişaf etdirmək olsa da, kənd yerlərində məşğulluğun artırılması, əhalinin rifah halının yaxşılaşdırılması məqsədilə qadınların bütün təşəbbüslərini dəstəkləyirik. Digər tərəfdən, kənd təsərrüfatında mövsümi işlərin çoxluğu müəyyən zamanlarda xeyli asudə vaxt yaradır. Bu müddətdə işlə məşğul olub qazanc əldə etməklə həm də növbəti mövsümdə kənd təsərrüfatına daha çox sərmayə qoymaq imkanı yaranır. Məsələn, şirniyyat evi, təndir, xalça toxuma sexi, inkubator kimi bizneslərlə fəaliyyətə başlamış qadınlar indi qarşılarına aqrobiznes ilə bağlı məsuliyyətli hədəflər qoyub, pambıqçılıq, baramaçılıq, üzümçülük, bağçılıq, eləcə də quşçuluq və heyvandarlıq kimi aqrobiznes sahələrində də özlərini sınayırlar. Fəaliyyətə başlamış olan 30 qadın qrupundan 17-si artıq özlərinin aqrobizneslərini yaradıb", - deyə Mirzə Əliyev vurğulayıb.

Dövlət İmtahan Mərkəzinin (DİM) Direktorlar Şurasının sədri Məleykə Abbaszadə qadınların məşğulluğunun artırılması istiqamətində dövlətimizin həyata keçirdiyi mühüm tədbirlərdən söz açıb.

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Azərbaycan nümayəndəliyinin rəhbəri Məlek Çakmaz çıxışında bildirib ki, Azərbaycanda kənd təsərrüfatı sahəsində çalışanların təqribən 50 faizi qadınlardır. Bu baxımdan onların potensialından istifadə etmək günün tələbidir. Bu istiqamətdə FAO və Dünya Bankı Azərbaycanın Kənd Təsərrüfatı Nazirliyi ilə birgə layihələri gələcəkdə də davam etdirəcək.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova Azərbaycanda qadın sahibkarların fəaliyyətindən söz açıb, bu istiqamətdə həyata keçirilən layihələri, görülən işləri təqdir edib.

Statistik rəqəmlərə müraciət edən komitə sədri bildirib ki, hazırda ölkəmizdə ümumi sahibkarların 35 faizini qadınlar təşkil edir. Bu isə dövlətimizin qadın sahibkarlığının inkişafına diqqət və qayğısının bariz nümunəsidir.

Sonra tədbir digər çıxışlarla davam edib.

Tədbir çərçivəsində Azərbaycan Kənd Qadınları Assosiasiyası üzvlərinin əl işlərindən, eləcə də hazırladıqları çörək, şirniyyat və digər məhsullardan ibarət sərgi də təşkil edilib.

AZƏRTAC

# Baş prokuror Biləsuvar rayonunda vətəndaşları qəbul edəcək

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, baş prokuror Zakir Qaralov martın 15-də saat 10:00-da Biləsuvar Rayon Prokurorluğunun inzibati binasında Biləsuvar, İmişli, Cəlilabad, Neftçala və Cəbrayıl rayon sakinlərinin qəbulunu keçirəcək.**

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, qəbulda vətəndaşların prokurorluq orqanlarının səlahiyyətlərinə aid müraciətlərinə baxılacaq.

Vətəndaşların qəbulla bağlı qeydiyyatı və Biləsuvar rayonuna gəlmələrinin təşkili müvafiq rayon prokurorları tərəfindən həyata keçiriləcək.

Sakinlər yaşadıqları ərazi üzrə rayon prokurorluqlarına yazılı və ya şifahi müraciət etməklə yanaşı, Baş Prokurorluğun müraciətlərə baxılması idarəsinin 437-28-79 nömrəli telefonu və contact@prosecutor.gov.az elektron poçt ünvanı vasitəsilə də qəbula yazıla bilərlər.

AZƏRTAC

# Ümumdünya Mülki Müdafiə Gününə həsr olunmuş tədbir





Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Gəncə Regional Mərkəzinin rəisinin illik Mülki Müdafiə Tədbirlər Planına uyğun olaraq hər il Beynəlxalq Mülki Müdafiə Təşkilatı tərəfindən tövsiyə olunmuş mövzu əsasında "1 Mart - Ümumdünya Mülki Müdafiə Günü" keçirilir. Bu il isə "Uşaqların təhlükəsizliyi bizim məsuliyyətimizdir" mövzusunda keçirilməsi tövsiyə olunmuşdur. Bu münasibətlə Gəncə Regional Mərkəzin əhatə edən rayonlara göndərilmiş tövsiyələr əsasında Gəncə şəhərində də mülkiyyət formasından asılı olmayaraq, bütün obyektlərdə silsilə tədbirlər keçirilmişdir. Nümunəvi tədbir, Gəncə şəhər 30 nömrəli tam orta məktəbdə təşkil olunmuşdur. Tədbirdə Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Gəncə Regional Mərkəzi MM İdarəsinin MM hazırlığı şöbəsinin rəisi Fuad Muradov, Qırmızı Aypara Cəmiyyətinin Gəncə Şəhər Bölməsinin sədri Sucəddin Qurbanov, məktəbin direktoru İlham Həsənov müəllim kollektivi və şagirdlər iştirak edirdi. Dövlət Himninin səslənməsindən sonra məktəbin direktoru İlham Həsənov Fövqəladə Hallar Nazirliyinin zəngin və şərəfli tarixindən, maarifləndirmə məqsədi ilə keçirilən bu cür tədbirlərin olduqca əhəmiyyətindən söhbət açdı. Bildirdi ki, Mülki Müdafiə ölkənin ümumi müdafiə sisteminin tərkib hissəsidir. Gəncə şəhəri ərazisində strateji əhəmiyyətə malik bir sıra sənaye, təsərrüfat obyektləri, habelə çoxlu sayda təhsil, uşaq bağçaları, səhiyyə, mədəniyyət ocaqları fəaliyyət göstərir ki, burada da xeyli sayda fəhlə və qulluqçular çalışır ki, bunların mühafizəsini təşkil etmək, fövqəladə hallar zamanı davranış qaydalarının aşılanması ən ümdə məsələlərdən biridir. Belə, bu gün Fövqəladə Hallar Nazirliyi öz çevik dəstələri ilə istənilən fövqəladə halların qarşısını almağa qadirdir. Gəncə Regional Mərkəzin əməkdaşları da öz funksional vəzifələrini layiqincə yerinə yetirir, maarifləndirmə işləri aparır, mütəmadi qabaqlayıcı profilaktik tədbirlər görür.

Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Gəncə Regional Mərkəzi MM İdarəsinin MM Hazırlığı şöbəsinin rəisi Fuad Muradov məlumat verdi ki, müasir dövrdə texnogen və təbii fəlakətlər təhlükəsi və onların dağıdıcı nəticələrinin miqyası artdıqca Mülki Müdafiə özünün əhəmiyyətinə görə ölkənin hərbi müdafiəsinə bərabər səviyyədə yüksəlir, bir sıra hallarda isə daha vacib əhəmiyyət kəsb edir.

Ümummilli liderimiz Heydər Əliyevin 18 aprel 1998-ci il tarixli "Mülki Müdafiə haqqında" Qanunu Azərbaycan Respublikasında Mülki Müdafiə sisteminin əsasını qoymuşdur. Bu gün Ali Baş Komandan cənab İlham Əliyev ulu öndərin siyasi kursunu uğurla davam etdirir. Ölkədə əhalinin mühafizəsini, fövqəladə hallar zamanı vətəndaşların təhlükəsizliyini təmin etmək birinci vəzifə hesab olunur. Məhz bu baxımdan 16 dekabr 2005-ci il tarixli sərəncamı ilə təbii və texnogen xarakterli fəlakətlərin aradan qaldırılması və qəza xilasetmə zamanı fəlakətin minimuma endirilməsi kimi vacib qərar qəbul edərək, Fövqəladə Hallar Nazirliyi yaradıldı. Bu gün sözün əsl mənasında, Fövqəladə Hallar Nazirliyi öz çevik dəstələri ilə istənilən fövqəladə halların qarşısını almağa qadirdir.

Tədbirin sonunda, müəllim və şagirdləri maraqlandıran suallar cavablandırıldı.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

# Nəsimi rayonunda yeni ünvanda Novruz yarmarkası yaradılmışdır



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığı ilə paytaxtda 14 ünvanda və ölkənin bütün şəhər və rayon mərkəzlərində martın 2-dən etibarən hər həftənin şənbə və bazar günləri, martın 16-dan 21-dək isə hər gün Novruz yarmarkaları keçiriləcək.

Bununla əlaqədar Azərbaycan Respublikasının Prezidenti Administrasiyasının təşkilatçılığı ilə Bakı Şəhər İcra Hakimiyyəti və Kənd Təsərrüfatı Nazirliyi ilə birgə əhalinin tələbatı nəzərə alınaraq Novruz bayramı ərəfəsində paytaxtın bütün rayonlarında kənd təsərrüfatı məhsulları yarmarkaları yaradılmışdır.

Artıq bu gündən etibarən paytaxtın Nəsimi rayonunda yaradılan satış yarmarkası Seyid Cəfər Pişəvəri küçəsi 2 A, ("Agro Mall", 3-cü mikrorayon dairəsinin yaxınlığı) ünvanında fəaliyyət göstərəcəkdir.

Hər cür şəraitə malik olan bu yarmarkada respublikamızın müxtəlif bölgələrindən fermerlər, ailə təsərrüfatları əhaliyə geniş çeşiddə kənd təsərrüfatı məhsullarını bazar qiymətlərindən xeyli ucuz təklif edəcəklər. Burada məhsulların keyfiyyətinə və qiymətlərinə müvafiq qurumlar tərəfindən nəzarət olunacaqdır.

Sakinlərimizi yeni ünvandakı satış yarmarkasına dəvət edirik.

**Nəsimi Rayon İcra Hakimiyyəti.**

# Daxili İşlər Nazirliyi və Baş Prokurorluq Yardımlı rayonunun Ləzran kəndində baş verən hadisə ilə bağlı birgə məlumat yayıb

**Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Baş Prokurorluğu bu il fevralın 23-də Yardımlı rayonunun Ləzran kəndi ərazisində baş verən və ölümlə nəticələnən hadisə ilə bağlı birgə məlumat yayıb.**

Hər iki qurumun mətbuat xidmətlərinin AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilir ki, fevralın 23-də saat 17 radələrində Yardımlı rayonunun Ləzran kəndi ərazisində kənd sakini Bəhruz İsgəndərov ilə rayonun Şovud kənd sakini Teymur Hüseynov arasında baş vermiş münaqişə zamanı həmin şəxslər, eləcə də Pərviz İsgəndərov, İbrahim Mirzəyev xəsarət alıblar. Bəhruz İsgəndərov aldığı xəsarətlərdən xəstəxanada ölüb.

Faktla bağlı rayon prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci maddəsi ilə cinayət işi başlanıb.

İstintaq zamanı hadisə yeri müayinə edilib, maddi sübutlar götürülüb. Bəhruz İsgəndərovun meyiti daxili və xarici müayinə olunub, məhkəmə-tibbi, kompleks məhkəmə-tibbi bioloji və digər ekspertizalar təyin edilib, şahidlərin ifadələri alınıb və digər zəruri istintaq hərəkətləri aparılıb.

İş üzrə Teymur Hüseynov ifadəsində Bəhruz İbrahimovu bıçaqla vurduğunu etiraf edib. O, Cinayət Məcəlləsinin həmin maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək fevralın 26-da barəsində məhkəmənin qərarı ilə dörd ay müddətində həbs-qətimkan tədbiri seçilib.

Rayonun Ləzran kənd sakinlərinin müraciəti nəzərə alınaraq cinayət işinin icraatı Baş Prokurorluğun Ağır cinayətlərə dair istintaq idarəsinə tapşırılıb. Baş Prokurorluğun və Daxili İşlər Nazirliyinin əməkdaşlarından ibarət istintaq-əməliyyat qrupu yaradılaraq rayona ezam edilib.

Cinayət işinin istintaqı və həyata keçirilən əməliyyat təhlükəsizliyi Azərbaycan Respublikasının baş prokuroru və daxili işlər naziri tərəfindən xüsusi nəzarətə götürülüb.

Hazırda cinayət hadisəsinin bütün iştirakçılarının müəyyənləşdirilərək məsuliyyətə cəlb olunmaları istiqamətində zəruri və təxirəsalınmaz istintaq-əməliyyat tədbirləri davam etdirilir.

AZƏRTAC

**"AzerGold" QSC tərəfindən 05.03.2019-cu il tarixində "Nəcib metal külçələrinin ayrıca qarışdırılmadan affinaj (emal) olunması və sikkələrin hazırlanması işlərinin satın alınması" predmeti üzrə elan edilmiş açıq tenderin adı mexaniki səhvliklə qeyd olunmuşdur. Həmin tenderin adı "Nəcib metal külçələrinin ayrıca qarışdırılmadan affinaj (emal) olunması işlərinin satın alınması" kimi oxunmalıdır.**

Tender Komissiyası.

## BİLDİRİŞ

"AzerGold" QSC tərəfindən "Çovdar Filiz Emalı sahəsindən hasilat zamanı əmələ gələn təhlükəli tullantılarının daşınması və utilizasiya xidmətlərinin satın alınması" üçün 01 fevral 2019-cu il tarixində elan edilmiş açıq tender üzrə malgöndərənlərin sorğusu əsasında "Dövlət satınalmaları haqqında" Qanunun 30.2-ci maddəsinə əsasən ilkin sənədlərin qəbulu tarixi 29 mart 2019-cu il saat 15.00-dək, tenderə kommersiya təklifinin və təkliflərin təminatı sənədlərinin qəbulu isə 08 aprel 2019-cu il saat 15.00-dək uzadılır. Sənədlər möhürlənmiş, imzalanmış və ikiqat zərfdə olmaqla təqdim olunmalıdır. Tender üzrə təklif zərflərinin açılışı 09 aprel 2019-cu il tarixində saat 15.00-da Bakı şəhəri, Səbail rayonu, Mikayıl Müşfiq 2H ünvanında keçiriləcəkdir.

**Əlaqələndirici şəxs: Aygül Tağıyeva (Tel. 012-505-02-02, daxili 1108)**

TƏKRAR

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
AÇIQ TENDER ELAN EDİR
Tender 3 (üç) LOT üzrə keçirilir:

LOT 1: Azərbaycanın mədəniyyət sahəsini və məkan məlumatlarını əhatə edən coğrafi informasiya sistemləri (GİS) və elektron xəritə üzərindən naviqasiya portalının (culturemap.az) yaradılması

LOT 2: Nazirlikdə bir ildən çox istifadə edilən kompüter proqramlarının, sistemlərin, məlumat bazalarının yaradılması, təkmilləşdirilməsi, yenilənməsi, hazırlanması

LOT 3: Nazirliyin 147 çağrı sisteminin, kompüter proqramlarının, modullarının, sisteminin, məlumat bazalarının hazırlanması, yaradılması təkmilləşdirilməsi və yenilənməsi

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu AZ1000, Bakı şəhəri, Hökumət Evi, Ü.Hacıbəyli küçəsi, 84, III mərtəbə ünvanından (Əlaqələndirici şəxs Cəfərova Türkan, telefon: 012 498 20 62) ala bilərlər.

İştirak haqqı:
LOT 1: 160 manat
LOT 2: 85 manat
LOT 3: 75 manat
Hesab: AZ78CTRE00000000000002178501
VÖEN: 1700015381
Bank: Dövlət Xəzinədarlığı Agentliyi
Kodu: 210005
VÖEN: 1401555071
M/H: AZ41NABZ01360100000000003944
S.W.İ.F.T: CTREAZ22

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
1. Tenderdə iştirak etmək üçün yazılı müraciət;
2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);
4. Tender təklifi dəyərinin 1%-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);
5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;
6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
8. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
9. İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;
10. Digər sənədlər: İddiaçının 10 ildən az olmayaraq bu sahədə iş təcürbəsinə tələb, iddiaçının son 3 ildə orta illik dövriyyəsinə tələb, müvafiq sahədə son üç ildə həyata keçirdiyi layihələr haqqında müfəssəl məlumat, iddiaçının rəsmi ştat vahidində peşəkar proqramçıların işləməsinə tələb, işləri yerinə yetirəcək işçilərin ixtisası və təcrübələri haqqında tələblər, iddiaçının təklif olunan sistem və ya istifadə edilən proqram təminatı üzrə sertifikatlı mütəxəssislərinin olmasına tələb, idiaçının sertifikat, patent, standart və lisenziyalarına dair tələblər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 11.03.2019-cu il saat 17:00 tarixinə qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 19.03.2019-cu il saat 17:00-a qədər AZ1000, Bakı şəhəri, Hökumət Evi, Ü.Hacıbəyli küçəsi, 84 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 27.03.2019-cu il saat 14:00 tarixində AZ1000, Bakı şəhəri, Hökumət Evi, Ü.Hacıbəyli küçəsi, 84 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

TENDER KOMİSSİYASI.

## BİLDİRİŞ

Dövlət Sərhəd Xidmətinin tələbatı üçün "Respublika" qəzetinin 25 yanvar 2019-cu il tarixli buraxılışında dərc edilmiş tender elanında qeyd olunan aşağıda adları göstərilən lotlar üzrə sənədlərin qəbulu 14 mart 2019-cu il saat 17:00-dək, tender təklifinin təqdim olunduğu son tarix isə 28 mart 2019-cu il saat 16:00-dək uzadılmışdır.

**Hesab:** Dövlət Xəzinədarlığı Agentliyi kod: 210005; VÖEN 1401555071; M/h: AZ41NABZ01360100000000003944; S.W.İ.F.T BİK: CTREAZ22; Dövlət Sərhəd Xidməti VÖEN 1700360581; H/h:AZ19CTRE00000000000002388501; XHK 142319 2388501(2310) fond 3

**Əlaqə telefonu: Tel: (012) 498-01-36**

